30 sentyabr 2022 №72 (1945)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib

2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilib. Bununla bağlı Prezident İlham Əliyev sentyabrın 29-da sərəncam imzalayıb.

səh. 2

## Dayanıqlı inkişaf üçün mədəni strategiya necə olmalıdır?

### 160 ölkədən nümayəndələrin qatıldığı konfransda dünya mədəniyyətinin aktual mövzuları müzakirə edilir

Sentyabrın 28-də Meksika Birləşmiş Ştatlarının paytaxtı Mexikoda UNESCO-ya üzv ölkələrin mədəniyyət nazirlərinin Mədəni Strategiya və Dayanıqlı İnkişafa dair Dünya Konfransı ("Mondiacult – 2022") işinə başlayıb. Tədbirə 115 ölkədən yüksək səviyyəli rəsmilər olmaqla, ümumilikdə 160 ölkədən nümayəndə heyəti qatılıb.



Konfransda mədəniyyət naziri Anar Kərimovun rəhbərliyi ilə ölkəmizin nümayəndə heyəti iştirak edir.

Sentyabrın 30-da başa çatacaq konfransda "İrs və mədəni müxtəliflik böhran dövründə", "Yenilənmiş və gücləndirilmiş mədəniyyət siyasəti", "Mədəniyyət dayanıqlı inkişaf üçün", "Yaradıcı iqtisadiyyatın gələcəyi" mövzularında müzakirələr aparılır.

Nazir Anar Kərimovun çıxışı "İrs və mədəni müxtəliflik böhran dövründə" mövzusuna həsr olunub. Konfrans çərçivəsində nazirin bir sıra ikitərəfli görüşləri də nəzərdə tutulub.

Anar Kərimov konfransda iştirak edən Macarıstanın mədəniyyət məsələləri üzrə dövlət katibi Piter Hoppalla görüşüb. Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin yüksələn xətlə inkişaf etdiyi, bu əməkdaşlığı tənzimləyən müqavilə bazasının daha da möhkəmləndirilməsinin zəruriliyi qeyd olunub.

Bildirilib ki, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilib. Macarıstanın Vesprem şəhəri isə gələn il "Avropanın Mədəniyyət Paytaxtı" olacaq. Bu baxımdan iki şəhər arasında birgə mədəni layihələr həyata keçirilə bilər.

Görüşdə eyni zamanda Azərbaycan mədəniyyətlərarası dialoq sahəsində təşəbbüs və tədbirlərinə Macarıstanın dəstəyi və iştirakının vacibliyinə diqqət çəkilib, UNESCO çərçivəsində fəaliyyətlərdə qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

## Tarixi görkəmini bərpa edən Şuşa tezliklə zəngin mədəni həyatına qovuşacaq



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 28-də Şuşa şəhərində yeni inşa olunan, eləcə də əsaslı təmir-bərpa edilən bir sıra obyektlərdə işlərin gedişi ilə tanış olublar.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov şəhərdə yeni yaşayış kompleksinin tikintisi barədə məlumat verib. Bildirilib ki, tikintinin ümumi sahəsi 8 hektara yaxındır. Yaşayış kompleksi 23 binadan ibarət olacaq. Səkkiz binanın tikintisinə bu il iyulun 1-də, digər 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Ümumilikdə 450 mənzil nəzərdə tutulan yaşayış kompleksində binalar 3 və 5 mərtəbəli olacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

davamı səh. 2-də

## Paytaxtımız növbəti kitab bayramına hazırlaşır

Xəbər verdiyimiz kimi, paytaxtımız yenidən beynəlxalq kitab bayramına ev sahibliyi edəcək. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 5-9 oktyabr tarixində VIII Bakı Beynəlxalq Kitab Sərgisi ("Baku International Book Fair – 2022") keçiriləcək.




Bakı Ekspo Mərkəzində açılacaq sərgidə yerli və xarici nəşriyyatlar və mətbəələr, eləcə də kitab mağazaları, universitetlər, mədəniyyət mərkəzləri, muzeylər və s. iştirak edəcək.

Sərginin məqsədi rəqəmsal əsrdə kitabın, mütaliənin təbliği və populyarlaşdırılması, Azərbaycan və xarici nəşriyyatların poliqrafiya məhsulları ilə tanışlıq, nəşriyyat sənayesinə dəstək, potensial əməkdaşlıq üçün nəşriyyatları kitab mağazaları ilə tanış etmək, ölkəmizdə kitab biznesinin inkişafı ilə bağlı təcrübə və fikir mübadiləsi aparmaqdır.

"Caspian Event Organisers" şirkətinin təşkilati dəstəyi ilə keçiriləcək sərgidə 16 ölkədən 60-dan çox aidiyyəti qurum, 130 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə təmsil olunacaq. Qeyd edək ki, ötən il sərgiyə 13 ölkədən iştirakçı təşkilatlar qatılmışdısa, bu dəfə ölkə sayı 16-ya çatıb.

davamı səh. 2-də

## "Qəlbim Qarabağdadır" – Vyanada və Budapeştdə sərgi və konsert

Avstriyanın paytaxtı Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) 27 Sentyabr – Anım Günü ilə bağlı "Qəlbim Qarabağdadır" adlı sərginin açılışı olub.

"Şuşa İli" çərçivəsində AMM-in Azərbaycanın Avstriyadakı Səfirliyi və "Arts Council Azerbaijan" təşkilatı ilə birgə keçirdiyi sərgidə 8-15 yaşlı uşaqların Qarabağa həsr etdikləri rəsm əsərləri nümayiş olunub.

AMM-in rəhbəri Leyla Qasımova sərgi haqqında məlumat verib. Qeyd edib ki, təqdim olunan əsərlərdə rəng koloriti Azərbaycan gənclərinin Qarabağ sevgisini və onların Vətən torpağına ülvi hisslərini təcəssüm etdirir.

davamı səh. 8-də

## Varşavada Azərbaycan kinosu həftəsi

Polşanın paytaxtı Varşavada Azərbaycan kinosu həftəsi keçirilir. Ölkəmizin Polşadakı səfirliyi, Mədəniyyət Nazirliyi və Polşa Kinematoqrafçılar Assosiasiyasının birgə layihəsi polyak tamaşaçılarına Azərbaycan kinematoqrafiyası ilə tanışlıq imkanı yaradıb.

Varşavanın "Kultura" kinoteatrında oktyabrın 1-dək davam edəcək kino həftəsində filmlər polyak və ingilis dillərində subtitrlərlə nümayiş olunur.

Açılış mərasimində Polşa Kinematoqrafçılar Assosiasiyasının vitse-prezidenti Kinqa Dembska, Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova kino həftəsinin əhəmiyyətindən söz açıblar. Səfir çıxışında Azərbaycanda kinonun tarixi haqqında ətraflı danışıb.

Sonra Mazovietski əyalətinin rəhbəri Adam Strujikin adından təbrik məktubu oxunub. Varşava Yeparxiyasının köməkçi yepiskopu Mixal Yanoxa Azərbaycanda multikulturalizm mühiti haqqında təəssüratını bölüşüb.

Kino həftəsinin açılışında rejissor Fariz Əhmədovun "Sonuncu" sənədli filmi nümayiş olunub. Nümayişdən öncə rejissor və filmin polşalı operatoru Mateuş Çuxnovski çıxış edərək uğurlu yaradıcılıq işindən söz açıblar.




Azərbaycan kinosu həftəsinin proqramına həmçinin "Biz", "Daxildəki ada", "Miras" filmləri daxildir.

## Səs və musiqinin rənglərdə təcəssümü...



"Yaxşı rəsm musiqidir, melodiyadır" deyib dünya şöhrətli italyan rəssamı Mikelancelo. Beynəlxalq Muğam Mərkəzində (BMM) sentyabrın 28-də açılışı keçirilən Xalq rəssamı Əşrəf Heybətovun "Muğam aləmi" adlı fərdi sərgisi də musiqi ilə rəssamlığın bir-birinə çox yaxın olduğuna əyani sübut idi.

Qonaqları salamlayan BMM-in direktoru, Xalq artisti Murad Hüseynov rəssamın yaradıcılığında milli üslubdan söz açdı. Bildirdi ki, muğama olan sonsuz sevgidən yaranan bu əsərlər muğam ifaçılarının ən dərin meditasiyadan tutmuş, ən yüksək emosional yüksəlişə qədər olan həssas-ekspressiv hallarının dinamikasını simvolizə edir.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva sərgi münasibətilə rəssamı təbrik etdi. Bildirdi ki, Xalq rəssamının Şuşa, Qarabağ, ümumən Vətən mövzusuna özünəxas münasibəti əsərlərində hər zaman ön plandadır.

davamı səh. 2-də

## "Türk" sözünün qədim yazılı mənbələrdə ilk qeydə alındığı daş kitabə

Türkiyənin Bursa şəhərində "Orxondan Orxan Qaziyə" mövzusunda IV Beynəlxalq arxeoloji və mədəni ekskursiya çərçivəsində Türk dünyası üçün mühüm əhəmiyyət kəsb edən "İlteriş Müqəddəs Kağan" memorial kompleksi və daş kitabəsinin təqdimatı keçirilib. Tədbir Beynəlxalq Türk Akademiyası (BTA) tərəfindən təşkil olunub.



Türk tarixi üçün son 130 ilin ən mühüm kəşflərindən və türk adının keçdiyi ən qədim qaynaq olan "İlteriş Müqəddəs Kağan" memorial kompleksi və daş kitabəsi Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının birgə arxeoloji qazıntıları nəticəsində aşkar edilib.

Tədbirdə BTA-nın vitse-prezidenti Füzuli Məcidli, Türk Dil Qurumunun rəhbəri Gürer Gülsevin və başqaları çıxış ediblər.

Diqqətə çatdırılıb ki, beynəlxalq arxeoloji və mədəni ekskursiyada Azərbaycan, Türkiyə, Rusiya, Tatarıstan, Başqırdıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan və Monqolustandan nümayəndələr iştirak edirlər. BTA-nın "Türk dünyasının müqəddəs yerləri" layihəsi çərçivəsində ənənəvi arxeoloji və mədəni turlar çərçivəsində növbəti tədbirin 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan Şuşa şəhərində təşkili planlaşdırılır. Diqqətə çatdırılıb ki, bu turlardan birincisi 2015-ci ildə Rusiyanın Altay Respublikasında "Qızıl beşik Altay" mövzusunda keçirilib. Növbəti tədbir 2016-cı ildə "Tanrı dağlarından Ötükənə" mövzusunda Monqolustanda, üçüncü tur isə "Kentaydan Ulutauaya: yenilənmə" idi. "Tarixi yaddaş" mövzusunda 2017-ci ildə Qazaxıstanda baş tutub.

davamı səh. 8-də

## 44 günün əbədiyyət və şərəf yolu



Bölgələrdəki mədəniyyət müəssisələrində 27 Sentyabr – Anım Günü münasibətilə müxtəlif tədbirlər keçirilib. Tədbirlərdə 44 günlük Vətən müharibəsinin Azərbaycan tarixində yerindən, hərbçilərimizin misilsiz qəhrəmanlıqlarından söz açılıb.

Bərdə Regional Mədəniyyət İdarəsi (RMİ) Bərdə rayon Mədəniyyət Mərkəzində Bərdə Xalq teatrının hazırladığı "Zəfərə gedən yol" tamaşası nümayiş olunub. Rejissor Mehman Quliyevin quruluş verdiyi tamaşanın əsas qayəsi yeniyetmə və gənclərdə vətənpərvərlik hissini daha da yüksəltmək, insanların teatra marağını artırmaqdır.

davamı səh. 4-də

Xalq artisti Fikrət Verdiyevin 75 illiyi qeyd olundu




səh. 3

Azərbaycan Beyin Mərkəzlərinin I Forumunun iştirakçıları işğaldan azad olunmuş ərazilərə səfər ediblər

səh. 4



Tanınmış rəssam Lətafət Məmmədovanın fərdi sərgisi açılıb

səh. 3

# Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 sentyabr 2022-ci il**

# Tarixi görkəmini bərpa edən Şuşa tezliklə zəngin mədəni həyatına qovuşacaq





*əvvəli səh. 1-də*

Prezident və birinci xanım Şuşada hotel və konfrans mərkəzinin inşaat işləri ilə də tanış olub. Ümumi ərazisi 3 hektardan artıq olacaq hotel və konfrans mərkəzinin inşaat işlərinə bu ilin aprelində başlanılıb. Mərkəzdə 400 nəfərlik konfrans zalı, görüş otaqları, restoranlar, mağazalar, yeraltı və yerüstü avtodayanacaqlar və digər zəruri infrastruktur yaradılacaq.

Şuşa hotel və konfrans mərkəzinin inşası şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi zəngin mədəni həyatına qovuşması üçün aparılan bərpa-quruculuq işlərində mühüm yer tutur. Qədim dövrdə Böyük İpək Yolunun əsas qovşaqlarından biri olan Şuşa Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu məqsədlə şəhərdə karvansaralar tikilirdi. Hotel və konfrans mərkəzi də karvansara konsepti əsas götürülərək müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Xarici görünüşündə milli memarlıq elementləri tətbiq olunacaq.

Dövlət başçısı və birinci xanım Prezidentin Şuşa rayonunda Xüsusi Nümayəndəliyinin binasında da olublar. Bildirilib ki, bina 1970-ci illərdə inşa edilib. Burada bərpa və yenidənqurma işlərinə 2021-ci ilin iyununda başlanılıb. Binada ümumilikdə 41 iş otağı var. Burada əməkdaşların yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb.

Şuşada bərpa işçləri görülən tarixi tikililərdən biri də Mehmandarovların malikanə kompleksidir. Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə məlumat verib. Bildirilib ki, malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir.

Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri 2021-ci ilin oktyabrında başlanıb. İndiyədək evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub. Dağılmış divar bərpa edilib, zədəli divarda bərkitmə işləri aparılıb. Evin çöl pilləkəni yenidən qurulub, döşəmə daşlarının dağılmış hissələri bərpa edilib.

Eskiz layihələri əsasında divar və tavanlarda rəsmlərin bərpası işləri görülür. Bu işlər ailə məscidinin uçmuş günbəzlərini, damını, mehrabı və “Güldəstə”sini də əhatə edir. Mehmandarovların malikanə kompleksinə daxil olan bulaq istifadəyə verilib.

2023-cü ildə yekunlaşdırılması planlaşdırılan təmir-bərpa işlərindən sonra burada muzey ekspozisiyasının qurulması nəzərdə tutulur. Muzeyin ekspozisiyası özündə bir şuşalının evini təcəssüm etdirəcək. Burada ev sahibinin məşğuliyyətini, marağını nümayiş etdirən əşyalarla təchiz olunmuş kabinetin, qonaqların qəbulu üçün nəzərdə tutulan, evin ən təmtəraqlı otağı sayılan və bir çox hallarda taxta dekorativ panellər və parça divar kağızları ilə bəzədilən qonaq otağı, yemək və yataq otaqlarının yaradılması nəzərdə tutulur.

Şuşa şəhərində XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas olan tərzdə inşa edilmiş və hazırda bərpa olunan üç yaşayış binasının hotel kimi istifadəyə verilməsi nəzərdə tutulur.

Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə məlumat verib. Bildirilib ki, bu binalar işğal zamanı dağıdılmış və istifadəyə yararsız hala salınmışdı. Bu ilin mayından başlayan bərpa işləri yekunlaşdıqdan sonra istifadəyə veriləcək hotelin interyeri autentik üslubda olacaq. İşğal dövründə binanın dağılmış hissəsi yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə sökülüb. Həyətdəki yarımtikilinin divarlarında bərkitmə işləri aparılıb, dəmir-beton dam quraşdırılaraq tikintisi tamamlanıb. Təmir-bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Şuşada 1 saylı tam orta məktəbin binasının tikintisi sürətlə davam etdirilir. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov məlumat verib ki, ümumi tikinti sahəsi 4300 kvadratmetrə yaxın olan yeni məktəb binasının inşaat işlərinə 2021-ci ilin oktyabrında başlanılıb. Məktəb 960 şagird yerlikdir.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil kommunal və təmir xidmətinin inzibati binasında görüləcək əsaslı təmir işləri barədə də məlumat verilib.

# Anar Kərimov Mexikoda Xocalı abidəsini ziyarət edib

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti 28-30 sentyabr tarixində Meksikanın paytaxtı Mexikoda keçirilən UNESCO-ya üzv ölkələrin mədəniyyət nazirlərinin Mədəni Strategiya və Dayanıqlı İnkişafa dair Dünya Konfransında (“Mondiacult 2022”) iştirak edir.

Səfər çərçivəsində Anar Kərimov Mexiko şəhərinin Tlakskoake-Xocalı meydanında yerləşən Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib. Nazir abidənin önünə gül dəstəsi qoyub.

Qeyd edək ki, abidə Mexiko şəhərinin tarixi mərkəzində 2011-ci ildə Azərbaycan Hökumətinin dəstəyi ilə ucaldılıb. Həmçinin meydanda təmir-abadlıq işləri həyata keçirilib. Xocalı soyqırımı abidəsinin müəllifi Xalq rəssamı, heykəltəraş Natiq Əliyevdir.



# Səs və musiqinin rənglərdə təcəssümü...

## Xalq rəssamı Əşrəf Heybətovun “Muğam aləmi”

*əvvəli səh. 1-də*

Əşrəf Heybətovun xeyir və şər mövzusunun, milli-mənəvi dəyərlərimizin ehtiva olunduğu elementlərin çoxluq təşkil etdiyi əsərləri sənətsevərlərə yaxşı tanışdır. Rəssamın əsərləri bu ilin aprelində Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının Zəfər Qurultayında da sərgilənmişdi. Əşrəf Heybətovun işlərinin əsas mövzusu Azərbaycandır, xalqımızdır. Onun yaradıcılığında xalqımızın tarixi, mədəniyyəti və folkloru önəmli yer tutur.



Azərbaycan Milli Konservatoriyasının (AMK) elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova rəssamın əsərlərinin bir çox ölkələrin, eləcə də BMT, UNESCO, NATO kimi beynəlxalq təşkilatların sərgi zallarında nümayiş etdirildiyini qeyd edərək öz sənəti, yaşam fəlsəfəsi ilə Azərbaycan mədəniyyətini dünyada tanıtdığını dedi. Vurğuladı ki, “Muğam aləmi” sərgisinin səciyyəvi cəhəti rəssamın lirik məqamları emosional intensivliklə birləşdirə bilməsi, rənglər palitrası vasitəsilə çatdırmasıdır. Bu əsərlərdə rənglərin səs ştrixləri rolunu öz üzərinə götürməsi diqqət çəkir.

Filologiya üzrə fəlsəfə doktoru, AMK-nın dosenti Fəxrəddin Salim, Əməkdar artist Elza Seyidcahan çıxış edərək rəssamı sərgi münasibətilə təbrik etdilər.

İndiyədək bir çox ölkələrdə fərdi sərgiləri təşkil edilən Əşrəf Heybətov Azərbaycan Rəssamlar İttifaqı, Rusiya Rəssamlıq Akademiyası, Qərbi Avropa Elm və Mədəniyyət Akademiyasının üzvüdür.

“Muğam aləmi” sərgisində rəssamın 25 əsəri nümayiş olunur. Bu əsərlərdə sənətkar xarakterik təsviri üslubda muğamların ifasını səciyyələndirən xüsusi texnikadan, bədii temperamentdən, mənəviyyatdan bəhs edir. Parlaq rəngarəng vurğular tamaşaçını melodik pafosun dərinliyinə və nüfuzuna kökləyir. Bədii kətanlara baxarkən onlarda nəyin “səsləndiyini” tanımağa çalışırsan: “Bayatı” və ya “Dilruba”, “Şur” və ya “Humayun”...

“Muğam aləmi” sərgisi ənənəvi Azərbaycan musiqisinin tərənnümüdür. Rəssam doğma yurdunun mədəniyyətindən ilham alaraq tamaşaçıları yenidən öz mədəni irsinə, tarixi köklərinə cəlb edir.

Əşrəf Heybətovun “Muğam aləmi” fərdi sərgisi oktyabrın 1-dək açıq olacaq.

**L.Azəri**

# Paytaxtımız növbəti kitab bayramına hazırlaşır

## VIII Beynəlxalq Kitab Sərgisində 16 ölkə təmsil olunacaq

*əvvəli səh. 1-də*

Sərgi şirkətlərin çap məhsullarını nümayiş etdirmək və satmaq, habelə yerli və xarici nəşriyyatlar, müəlliflər, eləcə də milli nəşriyyat və poliqrafiya şirkətləri ilə əlaqələr qurmaq və müqavilələr imzalamaq üçün unikal fürsətdir.

Kitab bayramında Azərbaycanın tanınmış yazıçı və şairləri, gənc yazarlar, eləcə də xarici müəlliflər, sənətçilər iştirak edəcəklər. Sərgi çərçivəsində uşaqlar və böyüklər üçün ustad dərsləri, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, qiraət və musiqi saatları və kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları təşkil ediləcək.

Sərgi müddətində müxtəlif formatda ümumilikdə 200-dən çox tədbirin təşkili nəzərdə tutulur.

Xalq şairi Ramiz Rövşən və tanınmış şair Aqşin Yenisey VIII Bakı Beynəlxalq Kitab Sərgisinin “fəxri yazarlar”ı olacaqlar. Hər iki müəllifin iştirakı ilə müxtəlif formatda tədbirlər keçiriləcək.

Builki sərginin “fəxri qonaq ölkə”si isə Türkiyədir.

Sərgi ziyarətçilərinin metronun “Elmlər Akademiyası”, “28 May” və “Koroğlu” stansiyalarından Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə gediş-gəlişi təmin ediləcək.

Saat 10:00-dan 20:00-dək açıq olacaq sərgiyə giriş ödənişsizdir.

Sərginin https://bakubookfair.az rəsmi saytında qeydiyyatdan keçib dəvətnamə əldə etmək olar. Dəvətnamə tədbirin bütün iş günlərində pulsuz ziyarət, qeydiyyatdan keçmək üçün növbəyə durmadan tədbirə daxil olmaq, tədbirlə bağlı məlumatlar paketini əldə etmək, sərgi çərçivəsində işgüzar proqramda iştirak etmək imkanı verir. Seminar, konfrans və təqdimat mərasimlərində iştirak etmək üçün ayrıca dəvətnaməyə ehtiyac yoxdur.

**Lalə**

# “Rənglərin sirri”

## Tanınmış rəssam Lətafət Məmmədovanın fərdi sərgisi açılıb

Sentyabrın 28-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Müasir İncəsənət Muzeyində UNESCO nəzdində Beynəlxalq İncəsənət Assosiasiyası, Beynəlxalq Plastik Sənətlər Assosiasiyası və Bakırköy Rəssamlar Dərnəyinin (İstanbul) üzvü azərbaycanlı rəssam Lətafət Məmmədovanın “Rənglərin sirri” adlı fərdi sərgisinin açılış mərasimi keçirildi.





Tədbirdə millət vəkilləri, tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

İlk olaraq torpaqlarımızın azadlığı uğrunda şəhid olan igid Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva qonaqları salamladı. Qeyd etdi ki, Lətafət Məmmədova xaricdə Azərbaycan incəsənətini layiqincə təmsil edən rəssamlardan biridir. 1954-cü ildə tanınmış Azərbaycan rəssamı, Əməkdar mədəniyyət işçisi Hafiz Məmmədovun ailəsində anadan olan Lətafət Məmmədova Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini və Azərbaycan Dövlət İncəsənət İnstitutunu (indiki ADMİU) müvəffəqiyyətlə bitirib. O, 1978-1980-ci illərdə Baltikyanı ölkələrin bir sıra şəhərlərində keçirilən simpoziumlarda iştirak edib və mükafatlara layiq görülüb. Lətafət xanımın ilk fərdi sərgisi 1999-cu ildə Bakı şəhərində keçirilib.

Nazir müavini bildirdi ki, Lətafət Məmmədova 2001-ci ildə Türkiyəyə dəvət olunub və İstanbulun müxtəlif bədii təhsil ocaqlarında dərs deyib. Rəssam 2005-ci ildə İstanbulun Yaşılköy səmtində öz sənət emalatxanasını yaradıb. 2018-ci ildə Türkiyənin “Şərəf” mükafatına layiq görülüb.

Sevda Məmmədəliyeva çıxışının sonunda yeni fərdi sərgisi münasibətilə Lətafət Məmmədovaya təbriklərini çatdırdı. Dedi ki, Azərbaycan rəssamlıq sənətinə verdiyi töhfələrə görə fırça ustası Mədəniyyət Nazirliyinin fəxri fərmanı ilə təltif olunub. Nazir müavini fəxri fərmanı rəssama təqdim etdi.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov söylədi ki, atası Hafiz Məmmədov ona bir müəllim kimi rəssamlığın bütün sirlərini öyrədib: “Bu səbəbdən Lətafət Məmmədovanın sənətdə ən böyük müəllimi atasıdır. İndinin özündə belə emalatxanasında çalışarkən atasının ona öyrətdiyi texnikalardan istifadə edərək çox gözəl əsərlər ərsəyə gətirir”.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva vurğuladı ki, dünyada bir milləti və ölkəni ən gözəl təbliğ edən mədəniyyətdir: “Lətafət Məmmədovanın bu sənətdə bir qadın olaraq uğura imza atmağı bizi ikiqat sevindirir. Çünki dünyada və ölkəmizdə daha çox kişi imzalı rəssamlar tanınıb. Ona görə də bir qadın rəssam olaraq ölkəmizi dünyada yüksək səviyyədə təmsil etmək təqdirəlayiqdir”.

Lətafət Məmmədovanın Türkiyədəki fəaliyyətinə toxunan Qənirə Paşayeva dedi ki, müstəqilliyimizin ilk illərində sərhədlər açılanda qardaş ölkədən dəvət olunanlar və oraya gedənlər mədəniyyət xadimləri idi. Bizim malik olduğumuz yüksək mədəniyyətin Türkiyədə təbliğ olunmasında bu insanların böyük rolu var. Həmin insanlardan biri də Lətafət Məmmədovadır.

Daha sonra Lətafət Məmmədova çıxış edərək sərginin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Sonda qonaqlar sərgi ilə tanış oldular.

Qeyd edək ki, yaradıcılığında əsasən lirik kompozisiyaların, qadın obrazlarının və təbiət təsvirlərinin üstünlük təşkil etdiyi rəssamın əsərləri Rusiyanın, Avropa ölkələrinin və ABŞ-ın muzeylərində, şəxsi kolleksiyalarda saxlanılır.

Oktyabrın 5-dək davam edəcək sərgidə Lətafət Məmmədovanın müxtəlif janrlarda 70-dən çox əsəri, həmçinin şəxsi kolleksiyasında saxladığı atası Hafiz Məmmədovun bir neçə əsəri nümayiş olunur.

**Nurəddin Məmmədli**

# Musiqi ilə yaşanan ömür

## Xalq artisti Fikrət Verdiyevin 75 illiyi qeyd olundu




Bu il tanınmış tarzən, Xalq artisti, Prezident təqaüdçüsü Fikrət Verdiyevin 75 illik yubileyidir. Sentyabrın 28-də Heydər Əliyev Sarayında sənətkarın yaradıcılıq gecəsi keçirildi.

Tədbirdə tanınmış ictimai xadimlər, incəsənət nümayəndələri, Fikrət Verdiyev sənətini sevənlər iştirak edirdi.

Yaradıcılıq gecəsi Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı.

Tədbirin aparıcısı, filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlı Fikrət Verdiyevi səhnəyə dəvət etdi. Tamaşaçılar tarzəni gurultulu alqışlarla qarşıladılar.

Sənətkarın yaradıcılıq yolundan söz açan aparıcı yubilyarı gözəl solo ifaçı və müşayiətçi olmaqla yanaşı, həm də musiqi təşkilatçısı kimi xarakterizə etdi. Bildirdi ki, Fikrət Verdiyev hələ tələbəlik illərində “Göygöl” Xalq Çalğı Alətləri Ansamblını yaradıb. Sonradan bu ansambl böyük şöhrət qazanaraq xaricdə də tanınıb, fəxri fərman və mükafatlarla təltif olunub. Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Rübabə Muradova, Arif Babayev, İslam Rzayev, Canəli Əkbərov, Nəzakət Teymurova, Flora Kərimova, İlhamə Quliyeva, Nisə Qasımova, Səkinə İsmayılova, Kəmalə Rəhimli, Məmmədbağır Bağırzadə, Elmira Rəhimova, Baba Mahmudoğlu və başqa tanınmış sənətçilər bu ansamblla çıxış ediblər. Zeynəb Xanlarova 1972-ci ildən etibarən bu ansamblın müşayiəti ilə yaddaşlardan silinməyən konsertlər verib.



Sonra Xalq artistinin həyat və yaradıcılıq anlarını əks etdirən videoçarx nümayiş olundu. Videokadrlarda vaxtilə Fikrət Verdiyevin müşayiəti ilə Azərbaycanın korifey sənətkarlarının ifa və çıxışları əks olunmuşdu. Onların hər birinin görüntüsü zalın alqışı ilə qarşılanırdı. Unudulmaz muğam ustadları Ağaxan Abdullayev, İslam Rzayev və Arif Babayevin ifaları, səhnə korifeyləri Nəsibə Zeynalova, Hacıbaba Bağırovun tarzən haqqında vaxtilə səsləndirdikləri təbrik və fikirlərini tamaşaçıların gur alqışlarla qarşılaması əsl sənətkarların hər zaman qəlblərdə yaşadığına işarə idi...

Gecə boyunca Gülhüseyn Kazımlı sənətkarın səmərəli fəaliyyətindən bəhs etdi. Onun həm Bakıda, həm də Gəncədə sənət adına diqqətəlayiq işlər gördüyünü söylədi. O, yubilyardan bu işlərin öhdəsindən necə gəldiyini xəbər aldı: axı, Gəncədə “Göygöl” ansamblı fəaliyyət göstərirdi, Fikrət Verdiyev isə Bakıda başqa kollektivlərlə işləyirdi... Fikrət Verdiyev bu suala “Əgər sevdiyin işlə məşğul olursansa, bu heç vaxt çətin deyil” cavabını verdi.

Yubiley tədbiri tanınmış ifaçıların çıxışları ilə davam etdi. Müğənniləri Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının “Göygöl” Dövlət Mahnı və Rəqs Ansamblı müşayiət edirdi.

Xalq artisti Mələkxanım Əyyubova, Əməkdar artist Sevinc Sarıyeva, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, ifaçılar Rövşən Məmmədov, Anar Quliyev, Samir Məmmədov, Kamilə Nəbiyeva və başqaları öz ifaları ilə yubilyarı və tamaşaçıları sevindirdilər. Xalq mahnıları və muğamlarımız, bəstəkar mahnılarının ifa olunduğu unudulmaz gecədə ansambl və ifaçılar öz çıxışları ilə musiqi mədəniyyətimizin zənginliyini və gözəlliyini, ahəngini tamaşaçılara çatdırdılar.

Gecənin daha bir musiqili qonağı isə Xalq artisti Ənvər Sadıqovun “Qaytağı” ansamblı idi. Ansambl öz repertuarından rəngarəng milli musiqilərlə yubilyarı təbrik etdi.

Qəlboxşayan çıxışlarla davam edən yaradıcılıq gecəsi tarzənin 75 illiyinə töhfə olmaqla yanaşı, zəngin milli musiqimizin təbliğinə əmək sərf edən sənətkarlara diqqətin nümunəsi idi.

Qeyd edək ki, Fikrət Verdiyev 1947-ci il sentyabrın 2-də Gəncə şəhərində anadan olub. “Göygöl” ansamblının yaradıcısı olan tarzən səmərəli fəaliyyəti ilə 1977-ci ildə ansambla “Dövlət Mahnı və Rəqs Ansamblı” statusunun verilməsinə nail olub. 2001-ci ildə Fikrət Verdiyev “Neftçi” mahnı və rəqs ansamblını yaradıb, kollektiv Könül Xasıyeva, Aygün Bayramova, Rövşən Behcəti, Samir Cəfərov, Feyruz Səxavət, Sabir Abdullayev, Teyyub Aslanov kimi tanınmış ifaçılarla birgə çıxış edib.

**Lalə Azəri**

# Türkiyədə Azərbaycanın Anım Günü silsilə tədbirlərlə qeyd edilib





Azərbaycanın yeni tarixinə şan və şərəf salnaməsi kimi yazılan 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsi qardaş Türkiyədə silsilə tədbirlərlə yad edilib.

Anım Günü münasibətilə Ankarada Türkiyə Prezident Administrasiyası Simfonik Orkestrinin binasında “Qarabağ Azərbaycandır!” şüarı ilə mərasim keçirildi.

Əvvəlcə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirildi, şəhidlərimizin ruhuna dualar oxundu.

Tədbirdə çıxış edən Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı parlaq Qələbədən bəhs etdi.

TBMM-də Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım 44 günlük Vətən müharibəsində qəhrəman övladlarımızın göstərdikləri misilsiz şücaətin əbədiyyətə qədər xalqımızın qəlbində yaşayacağını vurğuladı.

Atasının keçdiyi şərəfli döyüş yolundan qürur duyduğunu deyən Vətən müharibəsi şəhidi İlqar Vəliyevin oğlu Fuad Vəlizadə bildirdi ki, bu gün bütün şəhidlərimizin ruhu şaddır. Çünki onların arzusu Qarabağın azad olması idi. Qazi İlkin Rüstəmli Vətən müharibəsində döyüş yolundan bəhs etdi.

44 günlük savaşa həsr edilən videomaterial nümayiş olunandan sonra polkovnik Erhan Altunok Qarabağ Zəfərinin tarixi və mənəvi əhəmiyyətindən danışdı.

27 Sentyabr – Anım Günündə göstərdikləri həmrəyliyə görə iştirakçılara minnətdarlığını ifadə edən Azərbaycanın Türkiyədəki hərbi attaşesi polkovnik Müşfiq Məmmədov bildirdi ki, şəhid və qazilərimizin rəşadəti sayəsində doğma Vətənimizin adı hər zaman zirvələrdə olacaq.

Anım mərasimi bədii proqramla başa çatdı. Azərbaycana qarşı erməni təcavüzkarlığının tarixini, dövlət müstəqilliyimiz yolunda aparılan milli azadlıq mübarizəsini və ərazi bütövlüyünün bərpasını əks etdirən film və fotosərgi nümayiş olundu.

***

Türkiyənin bir sıra şəhərlərində Azərbaycanın Anım Günü silsilə tədbirlərlə qeyd edilib.

Konya Azərbaycanlı Tələbələr Birliyi tərəfindən yürüş, İzmir Azərbaycan Dərnəkləri Platforması tərəfindən keçirilən anım tədbiri təşkil edilib. Daha bir mərasim Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin təşkilatçılığı, Manisa Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə gerçəkləşib.

Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyinin təşkilatçılığı və Bursa Uludağ Universiteti “Azərbaycan Mədəniyyət və İncəsənət Birliyi”nin dəstəyi ilə şəhərin Demirtaş səmtində yerləşən “General-mayor Polad Həşimov” parkında mərasim keçirilib. Mərasimdə Bursada müalicəsi davam edən Vətən müharibəsi qaziləri də iştirak ediblər.

**Mehparə Sultanova**
**Ankara**

# Xalqımız tarixi Zəfərin qəhrəmanlarını heç vaxt unutmayacaq



Azərbaycanın Rusiyadakı Səfirliyinin Qonaq evində 27 Sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib. Anım mərasimində Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) fəalları, Rusiya ictimaiyyətinin nümayəndələri, o cümlədən Həştərxan Vilayət Dumasının deputatı Oleq Şein iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən raket zərbələrinə məruz qalmış şəhər və qəsəbələrimizdəki dağıntıları əks etdirən fotosərgiyə baxıblar. Vətən müharibəsi şəhidlərinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən səfir Polad Bülbüloğlu Vətən müharibəsinin Azərbaycan xalqının və dövlətçiliyinin tarixində xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd edib ki, dövlətimizin başçısı dəfələrlə ən yüksək tribunalardan Azərbaycan xalqının işğalla barışmayacağını bəyan etmişdi. 2020-ci ilin 27 sentyabrında işğalçı Ermənistanın növbəti təxribatından sonra başlanan 44 günlük müharibədə Azərbaycan Ordusu tarixi Qələbə qazandı, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Səfir diqqətə çatdırıb ki, döyüş meydanında məğlub olduğunu görən çarəsiz düşmən Azərbaycanın yaşayış məntəqələrini bombaladı və nəticədə 100-ə yaxın dinc sakin həlak oldu, 400-dən çox insan yaralandı.

Diplomat müharibədən ötən iki ilə yaxın müddətdə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərindən də söz açıb. Qeyd edib ki, bizim vəzifəmiz şəhidlərimizin xatirəsini yaşatmaq, onların rəşadətli həyat yolunu gələcək nəsillərə çatdırmaqdır. Azərbaycan xalqı tarixi Zəfərin qəhrəmanlarını heç vaxt unutmayacaq.

Tədbirdə daha sonra RAGB-nin məsul katibi Ceyhun Hüseynov çıxış edib. RAGB-nin rəhbəri Leyla Əliyevanın qəhrəman əsgərlərimizə həsr etdiyi şeir Abbasqulu Həsənovun ifasında səsləndirilib, Fatimə Qəhrəmanlı özünün Şuşaya həsr olunmuş şeirini oxuyub. Gənc azərbaycanlı violonçelist İbrahim Nağıyev və rusiyalı skripkaçı Sofiya Fedotovanın ifalarında musiqilər səsləndirilib.

# Bakı Xoreoqrafiya Akademiyasında Vətən müharibəsi şəhidləri anılıb

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) 27 Sentyabr – Anım Gününə həsr olunan tədbir keçirilib.

BXA-dan verilən məlumata görə, tədbirdə rektor vəzifəsini müvəqqəti icra edən Əməkdar artist Nailə Məmmədzadə, akademiyanın tələbə-müəllim və şagird heyəti iştirak edib.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə bildirilib ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı erməni işğalçılarından azad edərək tarixi Zəfərə imza atıb, ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Əllərində Azərbaycan bayrağı və Vətən müharibəsi şəhidlərinin şəkillərini tutan BXA-nın tam orta təhsil pilləsinin şagirdləri şeirlər söyləyiblər. Daha sonra “Şuşa, sən azadsan!” filmi nümayiş etdirilib.



№72 (1945)
30 sentyabr 2022
www.medeniyyet.az

# Vətəndaşların növbəti qəbulu Masallıda keçiriləcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov tərəfindən 2022-ci il 20 oktyabr tarixində saat 10:00-da Masallı rayon Heydər Əliyev Mərkəzində (Masallı şəhəri, Qarabağ küçəsi 17) Masallı, Yardımlı və Cəlilabad rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar 16 oktyabr 2022-ci il tarixinə qədər nazirliyin info@culture.gov.az elektron poçt ünvanı, (012) 493-74-24 telefon nömrəsi vasitəsilə və "Whatsapp" xidmətinə (077 714 71 47) müraciət etməklə qəbula yazıla bilərlər.

# Forum iştirakçıları işğaldan azad olunmuş ərazilərə səfər ediblər



Sentyabrın 29-da Azərbaycan Beyin Mərkəzlərinin I Forumunun yerli və əcnəbi iştirakçıları işğaldan azad olunmuş ərazilərimizə səfər ediblər.

Forum iştirakçıları əvvəlcə Füzuli rayonunun Merdinli kəndində dağıdılmış məscidə baxıblar.

Məlumat verilib ki, Qarabağda erməni vandalizminə məruz qalan yaşayış məntəqələrindən biri də Merdinli kəndidir. Köndələnçayın sahilində yerləşən bu kənd 1993-cü ildə ermənilər tərəfindən işğal edilərək dağıdılıb. Kənd 2020-ci ilin Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunub. Erməni vandalları 27 il ərzində kəndi talayıb, bütün evlər, sosial obyektlər dağıdılıb. Düşmən kənddəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə, azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdirib. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb – məzarlar dağıdılıb, məzar daşları uçurulub.

Azərbaycan Beyin Mərkəzlərinin I Forumunun yerli və əcnəbi iştirakçıları Füzuli Beynəlxalq Hava Limanı ilə də tanış olublar. 2021-ci ildə inşa olunan hava limanı barədə ətraflı məlumat verilib.

"İşğaldan azad olunmuş ərazilərə ilk dəfə səfər edirik. Füzulidə məscidi, dağıdılmış qəbiristanlığı və evləri gördük. Burada gördüklərimiz insana qəmginlik verir. Bu ərazilərin yenidən necə dirçələcəyini düşünürdük. Lakin Füzuli Beynəlxalq Hava Limanını gördükdən sonra hər şeyin daha gözəl olacağını deyə bilərik" – Avrasiya Araşdırmalar Mərkəzinin (Türkiyə) direktoru səfir Alev Kılıç təəssüratını belə ifadə edib.

Qeyd edək ki, sentyabrın 28-də Bakıda keçirilən Azərbaycan Beyin Mərkəzlərinin I Forumunun əsas məqsədi beyin mərkəzlərinin fəaliyyətinin stimullaşdırılması və dövrün tələbələrinə uyğun təşkil edilməsi, dövlət qurumları və beyin mərkəzləri arasında kommunikasiyanın və əməkdaşlığın qurulmasını təmin etməkdir. Forumda yerli və xarici beyin mərkəzlərinin təmsilçiləri ilə yanaşı, müxtəlif dövlət qurumlarının nümayəndələri də iştirak ediblər.

Forumda "Azərbaycanda beyin mərkəzləri və onların qarşısında duran məsələlər", "Vətən müharibəsindən sonra Cənubi Qafqaz evinin qurulmasına xidmət edən sülh prosesində beyin mərkəzlərinin rolu", "Azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri, iqtisadi inkişaf və Böyük Qayıdışla bağlı beyin mərkəzlərinin töhfələri" və "Qloballaşan dünyada milli kimliyin qorunması problemi" mövzularında panel iclasları keçirilib.

Forumda çıxış edən Prezident Administrasiyası Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova diqqətə çatdırıb ki, son illər Azərbaycanda beyin mərkəzi kimi fəaliyyət göstərmək istəyən qeyri-hökumət təşkilatlarının sayı artmaqdadır. Hazırda QHT statusunda fəaliyyət göstərən beyin mərkəzlərinin sayı 30-a yaxındır. Onlardan 20-yə yaxını dövlətlə sıx əməkdaşlıq edənlər, digər 10-a yaxını isə tam müstəqil və ya siyasi qüvvələrə bağlıdır.

"Hazırda bizim qarşımızda postmünaqişə problemlərinin həlli, azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri və ora məcburi köçkünlərin qayıdışı kimi ciddi çağırışlar durur. İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində irimiqyaslı işlər aparılır. Bu proses özlüyündə beyin mərkəzləri üçün əvəzedilməz tədqiqat mövzusu və fəaliyyət istiqamətidir", – deyə S.Yusifova bildirib.

# 2026-cı ilədək 66 min insanın doğma torpaqlara qayıdışı nəzərdə tutulur

İşğaldan azad olunan ərazilərdə dövlətimiz tərəfindən əsaslı bərpa və quruculuq işləri aparılır. Ən mühüm məsələ ərazilərin minalardan təmizlənməsidir. Bu, çox vaxt və maliyyə tələb edən məsələdir. Minalar təmizlənməlidir ki, insanlar evlərinə qayıda bilsinlər. Artıq Zəngilanın Ağalı kəndində yaşayış var.



Görüləcək işlər hələ çoxdur. Nəqliyyat-kommunikasiya xətlərinin, yolların tikilməsi, xəstəxanaların inşa edilməsi, ümumiyyətlə, infrastrukturun yaradılması mərhələli şəkildə həyata keçirilir. 2022-2026-cı illəri əhatə edəcək birinci mərhələdə 66 min məcburi köçkünün öz evlərinə qayıtması planlaşdırılır.

Bunu Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərindəki Xüsusi Nümayəndəliyinin böyük məsləhətçisi Araz İmanov sentyabrın 28-də Bakıda keçirilən Azərbaycan Beyin Mərkəzlərinin I Forumunda çıxışı zamanı deyib.

O diqqətə çatdırıb ki, 2020-ci ilin noyabrından indiyədək 530 milyon kvadratmetr ərazi (530 kvadrat kilometr – red.) minadan təmizlənib: "Həmin ərazilərdən 66 mindən çox mina və partlamamış sursat aşkar edilib. Xatırladaq ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin ümumi sahəsi 10 min kvadrat kilometrə yaxındır.

Bu tədbirin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və quruculuq prosesinə töhfəsini verəcəyinə inandığını bildirən A.İmanov deyib ki, azad edilmiş ərazilərdə bərpa-quruculuq proseslərinin sürətləndirilməsi işində beyin mərkəzlərinin təşəbbüsləri və verəcəyi töhfələr çox vacibdir.

# 44 günün əbədiyyət və şərəf yolu

*əvvəli səh. 1-də*

Tamaşanın nümayişindən sonra çıxış edən Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova vətənpərvərlik ruhunda hazırlanan tamaşaların əhəmiyyətini qeyd edib, yaradıcı heyətə uğurlar arzulayıb.

Bərdə RMİ tərəfindən keçirilən anım tədbirində Dövlət Himnimiz səsləndirilib, şəhidlərin əziz xatirəsi hörmətlə anılıb. Əllərində üçrəngli bayrağımız və şəhidlərin şəkillərini tutmuş tədbir iştirakçıları Şəhidlər xiyabanını və düşmənin Bərdəyə raket hücumu zamanı şəhid olan dinc sakinlərin xatirəsinə yaradılmış lövhəni ziyarət ediblər.

Tərtər rayonunun Ələsgərli kəndində şəhidlərin xatirəsinə inşa edilən abidə kompleksinin açılışı olub. Tədbirdə rayonun icra başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***











Sabirabad RMİ və rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı, İcra Hakimiyyətinin təşəbbüsü ilə Anım Günü ilə əlaqədar Sabirabad rayon Mədəniyyət Mərkəzində tədbir keçirilib. Tədbirdə icra başçısı Siraqəddin Cabbarov çıxış edərək şanlı Qələbə ilə sona çatan Vətən müharibəsi zamanı canlarını fəda edən oğullarımızın xatirəsinin həmişə qəlbimizdə yaşayacağını bildirib. Bədii hissədə Mədəniyyət Mərkəzi nəzdində fəaliyyət göstərən əlillərdən ibarət "Mübarizlər" teatrının hazırladığı "Qarabağ Azərbaycandır!" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub.

Regional idarənin əhatə etdiyi digər mədəniyyət müəssisələrində də anım tədbirləri təşkil olunub.

***

Şəmkir RMİ Şəmkir rayon MKS-nin Qaralar və Qılıncbəyli kənd kitabxana filialları açıq havada "27 Sentyabr Anım Günüdür" başlığı altında sərgi təşkil edib.

Şəmkir şəhərində Anım Günündə Şəhidlər abidə kompleksinin açılışı olub. Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhid ailələri, qazilər, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Göygöl rayon Mədəniyyət Mərkəzində isə "Vətənim sənsən" adlı sərgi keçirilib.

***





Anım Günü münasibətilə Ağcabədi rayonunda keçirilən tədbirdə ilk olaraq Bayraq meydanından Qəhrəmanlar parkına doğru yürüş təşkil olunub. Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Ağcabədi RMİ-nin rəisi Qalib Həsənovun da iştirak etdiyi tədbirdə Qəhrəmanlar parkı ərazisində şəhid qəhrəmanların xatirəsinə ağaclar əkilib.

***

Ağdaş RMİ, Ağdaş rayon Mədəniyyət Mərkəzi və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "44 günə gedilən yol" adlı tədbir təşkil edilib. Tədbirdə Ağdaş Xalq teatrının hazırladığı "Şəhid atası" kompozisiyası təqdim olunub.

Göyçay rayonunun Ləkçılpaq kəndində 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Zamiq Çingiz oğlu Əhmədovun xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı keçirilib.

***

Sumqayıt RMİ Anım Günü ilə əlaqədar Sumqayıt Şəhər İcra Hakimiyyətinin keçirdiyi ağacəkmə aksiyasına qoşulub. Şəhər bulvarında keçirilən aksiyada 100-ə yaxın həmişəyaşıl ağac əkilib.

Regional idarənin Xızı rayonu üzrə nümayəndəliyinə tabe olan müəssisələrin əməkdaşları Vətən müharibəsi şəhidi, C.Cabbarlı adına Mədəniyyət Mərkəzinin Giləzi qəsəbə Folklor klubunun əməkdaşı İlahə Allahverdiyevanın övladı Vidadi Fazil oğlu Allahverdiyevin anım mərasimində iştirak ediblər.

Sumqayıtın Tarixi Muzeyində "Azərbaycanın sumqayıtlı Milli Qəhrəmanları" adlı tədbir keçirilib. Tədbirdə mövzu ilə bağlı hazırlanmış videoçarx nümayiş olunub.

Sumqayıt Dövlət Rəsm Qalereyasının əməkdaşları Vətən müharibəsinin şəhid polkovnik-leytenantı Ramiz Cəfərovun ailəsini ziyarət ediblər.

Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları II Qarabağ müharibəsi şəhidi Məhəmmədəli Həsənzadənin ailəsi ilə görüşüblər.

Abşeron rayon Mədəniyyət Mərkəzi Ceyranbatan qəsəbə Folklor evinin əməkdaşları Vətən müharibəsi şəhidi Rüfət Şabanovun ailəsinə baş çəkiblər.

***

Xaçmaz RMİ Quba rayon Heydər Əliyev Mərkəzində "Təki Vətən yaşasın!" adlı tədbir keçirilib. Tədbirdə Quba şəhər 6, 7 saylı və rayon Alekseyevka kənd tam orta məktəbinin şagirdləri Vətənə və şəhidlərə həsr olunmuş şeirlər səsləndiriblər.

***

İsmayıllı RMİ və İsmayıllı Rayon İcra Hakimiyyəti tərəfindən Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidləri Tural Rəcəbalıyev və Fuad Nəcəfovun ailələri ziyarət olunub.

***

Kürdəmir RMİ-nin təşkilatçılığı ilə Kürdəmir rayon Heydər Əliyev Mərkəzində "Köksündə Vətən yürü..." adlı tədbir keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov, Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlının da iştirak etdiyi tədbirdə Vətən müharibəsi döyüşlərini özündə əks etdirən videoçarx nümayiş olunub. Vətənpərvərlik mövzusunda şeirlər, muğamlarımızdan parçalar və bəstəkar mahnıları tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.





Kürdəmir Dövlət Rəsm Qalereyasında keçirilən anım tədbirində məktəblilərin və qalereyanın dərnək üzvlərinin əl işlərindən ibarət "Şuşa şəhərinin tarixi abidələri" adlı sərgi nümayiş etdirilib.

Beyləqan rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşları 140 beyləqanlı şəhidin xatirəsinə ehtiram olaraq üzərində şəhidlərin şəkilləri əks olunmuş geyimlərlə Şəhidlər abidəsinin önündə keçirilən anım tədbirində iştirak ediblər.

Füzuli rayonunun Bala Bəhmənli kəndində şəhidlərin xatirəsinə ucaldılan abidənin açılışı olub. Abidədə kəndin Birinci Qarabağ və Vətən müharibəsi şəhidlərinin şəkilləri və onların haqqında məlumatlar yer alıb.

***

Lənkəran RMİ Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Anım Günü ilə əlaqədar şəhid ailələri və qazilərlə görüş keçirilib.

Lənkəranın Ürgə kəndində şəhid polkovnik-leytenant Mehman Şirvanovun anım mərasimi və xatirə lövhəsinin açılışı olub. Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, şəhid ailələri və rayon ictimaiyyəti iştirak ediblər.

Lənkəran rayonunun Gəgiran kəndində Vətən müharibəsi şəhidi Baloğlan Şakir oğlu Əhədlinin xatirəsinə inşa edilən xatirə kompleksinin açılışı keçirilib. Açılış mərasimində Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Mikayıl Cəfərzadə çıxış edərək 44 günlük Vətən müharibəsində qazandığımız Qələbədən danışıb, şəhidlərimizin qisasının alındığını, ərazi bütövlüyümüzün bərpa olunduğunu vurğulayıb.

***

Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Salyan nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan tarixində Zəfərə aparan yol" adlı tədbir keçirilib. Tədbirdə Salyan şəhidləri haqqında məlumatları əks etdirən videoçarx nümayiş olunub.

***

Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov, idarə əməkdaşları, həmçinin Masallı rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin kollektivləri Qəhrəmanlar parkında ucaldılmış Şəhidlər abidə kompleksini ziyarət ediblər.

Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin səhnəsində Masallı və Cəlilabad xalq teatrlarının aktyorları və Masallı Dövlət Regional Kolleci tələbələrinin iştirakı ilə jurnalist-publisist Cəfər Cəfərovun eyniadlı pyesi əsasında hazırlanmış "Tabuta sığmayanlar" adlı tamaşa-kompozisiya nümayiş etdirilib. Tamaşanı Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri və ictimaiyyət nümayəndələri izləyiblər. Rejissoru Cəmaləddin Əliyev olan tamaşanın səhnə tərtibatı Elsevər Əliyevə, musiqi tərtibatı isə Ruslan Zahidova məxsusdur.

***

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində şəhid Milli Qəhrəman, polkovnik İlqar Mirzəyevə (1973-2020) həsr olunan "Artilleriyanın atası" sənədli filmi nümayiş etdirilib. Tədbirdə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyev, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin və qazilərinin ailə üzvləri, müharibə iştirakçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Mədəniyyət Nazirliyinin "Salnaməfilm" studiyasında "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən çəkilən sənədli filmin rejissoru və ssenari müəllifi Kəmalə Musazadə, operatorları Soltan Abdullayev və Murad Nəzərli, icraçı prodüseri Azad Axundov, prodüseri Nazim Hüseynovdur.

Tovuz rayon Mərkəzi Kitabxanasında Anım Gününə həsr olunan "Qanları ilə tarix yazanlar" başlıqlı tədbir keçirilib.

Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidi İmamverdi İsmayılovun ailəsini ziyarət ediblər.

***

Şəki RMİ-nin rəisi Azər Yusubov, idarə əməkdaşları və Şəki Regional Ərazi Metodiki Mərkəzinin rəhbəri Rəhman Məmmədov Vətən müharibəsi şəhidləri Vilayət Allahverdiyev və Röyal Xasıyevin ailələrinə baş çəkiblər.

Oğuz rayon M.F.Axundzadə adına Mədəniyyət Mərkəzində "Tarix yazan qəhrəmanlar" adlı ədəbi-bədii kompozisiya təşkil edilib.

***

Gəncədə Anım Günü ilə əlaqədar ümumşəhər tədbiri keçirilib. Tədbirdə Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, mədəniyyət işçiləri, incəsənət xadimləri iştirak ediblər. İlk olaraq Vətən müharibəsi zamanı düşmənin Gəncəni raket atəşinə tutması nəticəsində dağılan ərazi ziyarət edilib, burada həlak olan mülki şəhidlərin şəkil və məlumatlarını əks etdirən lövhəyə baxış keçirilib. Silsilə tədbirlərin davamı olaraq Nizami Gəncəvi Məqbərəsinin ərazisində Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsinə həsr olunan ağacəkmə aksiyası gerçəkləşib.

Gəncə şəhər Zərif Qayıbov adına 5 saylı Uşaq musiqi məktəbində keçirilən tədbirdə Anım Gününə həsr olunmuş musiqilər səsləndirilib.

Samux rayon Heydər Əliyev Mərkəzində "Zəfərə aparan yolun ilk günü – 27 sentyabr" adlı tədbir keçirilib. Samux şəhər 1 saylı məktəb-liseyin şagirdləri tərəfindən "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı kompozisiya təqdim edilib.

Regional idarənin tabeliyində fəaliyyət göstərən digər mədəniyyət müəssisələrində də anım tədbirləri təşkil olunub.

**Hazırladı: N.Məmmədli**

# Mir Cəlalın xatirəsinə həsr olunmuş müsabiqələr elan edilib

Sentyabrın 28-də İçərişəhərdə yerləşən "Ədibin Evi"ndə görkəmli yazıçı, ədəbiyyatşünas, pedaqoq Mir Cəlalın (1908-1978) anım gününə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə ədibin ailə üzvləri, Mir Cəlalın sonradan həmkarlarına çevrilən tələbələri, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurasının nümayəndələri iştirak ediblər. Tədbirdə "kiçik hekayənin böyük ustası"nın irsinin davam etdirilməsi məqsədilə bir sıra birgə layihələrə dair müzakirələr aparılıb.

Çıxışlarda vurğulanıb ki, Mir Cəlalın bədii sözlə maraqlı süjet, hadisə və obrazları yığcam və lakonik üslubda yaratmaq bacarığı bugünkü qədər aktual olmayıb. İnformasiya texnologiyaları təkamülünün gətirdiyi yeni platformalar hamını qısa məzmunla daha çox fikir çatdırmaq məcburiyyəti qarşısında qoyur. Bununla yanaşı, satira ilə güldürüb düşündürən, ədəbiyyatımızın qızıl fonduna düşmüş Mir Cəlalın əsərləri ictimai müzakirələrdə cəmiyyətimizin tərəqqisinə səsləyən fəaliyyət istiqamətlərinə də təkan verərdi.



"Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva tədbirdə Mir Cəlalın xatirəsinə həsr edilmiş iki müsabiqəni elan edib.

Onlardan birincisi "Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun Medianın İnkişafı Agentliyi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə birgə keçirəcəyi "6 sözlük əhvalat" adlı müsabiqədir.

Müsabiqənin qalibləri Bakı Dövlət Universitetinin professoru, ədəbiyyatşünas Təhsin Mütəllimovun sədrliyi ilə yazıçı və jurnalistlərdən ibarət münsiflər heyəti tərəfindən seçiləcək və bu ilin dekabrında mükafatlandırılacaqlar. Müsabiqə dövründə iştirakçılara yaradıcı prosesdə dəstək məqsədilə iki vebinar keçiriləcək.

Medianın İnkişafı Agentliyinin saytında yer alan səhifəyə (https://bit.ly/MEDİA) daxil olaraq müsabiqə şərtləri barədə daha ətraflı məlumat almaq mümkündür.

Digər müsabiqə isə "Ədibin Evi"nin təşkil etdiyi və artıq 3-cü dəfə keçiriləcək Mir Cəlal adına hekayə müsabiqəsidir. Hekayələrin mövzusu ilə bağlı məhdudiyyət yoxdur. Həcmi 1500 (min beş yüz) sözdən çox olmamaq şərtilə Azərbaycan dilində yazılan hekayələr elektron şəkildə edibinevi@gmail.com ünvanına 2023-cü il 1 yanvar tarixinədək göndərilməlidir. Müsabiqəyə qədər çap olunmuş hekayələr qəbul edilmir.

Final mərhələsinə yüksələn 10 (on) hekayə "TEAS Press" Nəşriyyat Evi tərəfindən toplu şəklində nəşr ediləcək. Qalibləri Xalq yazıçısı Elçinin sədrliyi ilə peşəkar yazıçı və ədəbi tənqidçilərdən ibarət münsiflər heyəti seçəcək. Müsabiqəyə 2023-cü ilin aprel ayında yekun vurulacaq. 1-ci yer üçün 3000, 2-ci yer üçün (2 nəfər) 2000, 3-cü yer üçün (3 nəfər) 1000 manat pul mükafatı nəzərdə tutulub.

Qeyd edək ki, "Ədibin Evi" Mir Cəlalın 1929-1940-cı illərdə Bakıda yaşadığı ilk ünvanıdır. Ədib burada "Bir gəncin manifesti", "Dirilən adam" romanlarını, bir çox satirik hekayələrini qələmə alıb.

# Musiqi Mədəniyyəti Dövlət Muzeyində tanınmış pianoçu ilə görüş

Sentyabrın 28-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində tanınmış pianoçu, Əməkdar artist Rəna Rzayeva ilə görüş keçirilib.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova çıxış edərək Rəna Rzayevanın sənət fəaliyyəti haqqında danışıb. Qonağa muzey nəşrlərindən nümunələr hədiyyə edilib.



Tədbirdə Rəna Rzayevanın arfa ifaçısı, Əməkdar artist Çiçək Rzayevanın xatirəsinə həsr olunmuş diskinin təqdimatı keçirilib.

Bu yaxınlarda Avstriyanın paytaxtı Vyanada buraxılan diskdə yazılmış əsərlərin arasında bəstəkar Rəhilə Həsənovanın İkinci Qarabağ müharibəsində Qələbəmizə həsr olunmuş "Payız palitrası" əsəri də yer alıb. Diskə əlavə olunmuş bukletdə R.Rzayevanın Qarabağ mövzusuna həsr etdiyi rəsmləri əks olunub.

Əməkdar incəsənət xadimi, musiqişünas, professor Zümrüd Dadaşzadə çıxış edərək R.Rzayevanın yaradıcılığı və təqdim olunan disk haqqında ətraflı söz açıb.

Daha sonra R.Rzayeva diskdə yazılmış əsərlərdən bir neçəsini ifa edib.

# "Köhnə çamadanlar"ın təzə nümayişi



Sentyabrın 27-də paytaxtdakı "Gənclik Mall"da yerləşən "CinemaPlus" kinoteatrında "Köhnə çamadanlar" filminin media nümayəndələri və Vətən müharibəsi qaziləri üçün nümayişi olub.

Vətən müharibəsi şəhidlərinin Anım Günündə filmin yaradıcı heyət üzvləri, real qəhrəmanları nümayişdən öncə çıxış edərək fikirlərini bölüşüblər.

Ekran işində şəhid atası obrazını canlandıran Xalq artisti Məmməd Səfa, eləcə də filmdə haqlarında söhbət gedən Birinci Qarabağ müharibəsinin qadın iştirakçıları Aliyə Piriyeva, Kəmalə Qəhrəmanova, Xanımzər Həsənova və Məhəbbət Paşayeva, eləcə də 44 günlük Vətən müharibəsinin qaziləri ürək sözlərini bildiriblər. Ekran əsərinin haqq savaşımız, onun iştirakçıları və qəhrəmanlarının həyat hekayələrinin geniş tamaşaçı auditoriyasına təqdimatı baxımından əhəmiyyəti vurğulanıb.

Müharibənin ağrılarını hələ də fiziki və mənəvi yük kimi daşıyanlar filmin yaradıcı heyətinin bu işə yanğı ilə yanaşdığını, illərlə köhnəlməyən xatirələrinin təbii və təsirli çalarlarla kinolentə köçürüldüyünü dilə gətiriblər. Çıxışlarda həmçinin "Köhnə çamadanlar"ın çəkilişinə və yayımına dəstək olan şəxs və qurumlara təşəkkür bildirilib, Qarabağ həqiqətləri və haqq mücadiləmizin gələcək nəsillərə, həmçinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün daha çox belə bədii nümunələrin ərsəyə gətirilməsinin vacibliyi qeyd olunub.

Çıxışların ardınca nümayiş olunan film alqışlarla qarşılanıb.

Xatırladaq ki, real həyat hekayələri əsasında çəkilən film müharibənin qadınların taleyində buraxdığı ağrılı izlərə ekran həyatı verib. Birinci Qarabağ müharibəsində torpaqlarından didərgin düşən, işgəncələrə məruz qalan, doğmalarını itirən müxtəlif qadın obrazları, onların yaşadıqları psixoloji travmalar filmdə əksini tapıb. Eyni zamanda ekran əsərində 44 günlük Vətən müharibəsini və Qələbə sevincini əks etdirən sənədli kadrlar yer alıb.

Filmin quruluşçu rejissoru Saida Haqverdiyeva, ssenari müəllifi Sevda Sultanova, görüntü rejissoru Şahmar Səfəroğlu, montaj rejissoru Rza Almasi Pərqu, quruluşçu rəssamı Əfşan Əsədova, bəstəkarı Vüqar Camalzadə, art-direktoru Tahir Əliyev, baş prodüseri Pərvinə İsmayılova, icraçı prodüserləri Kəmalə Nəhmətova və Nicat Məmmədov, redaktoru Həmidə Rüstəmova, menecerləri Aynurə Əkbərova və Gülər Məlikdir.

Ekran əsərində Xalq artistləri Məmməd Səfa, Pərvanə Qurbanova, Əməkdar artistlər Gülzar Qurbanova, Nəsibə Eldarova, Şəfəq Əliyeva, aktyorlar Zemfira Əbdülsəmədova, Zümrüd Qasımova, Ülviyyə Əliyeva, Zülfiyyə Qurbanova, Oksana Rəsulova, Zülfiyyə Nəzər Məmmədova, Rada Nəsibova, Zarina Qurbanova, Aygün Fətullayeva, Türkay Cəfərli, Könül Qasımova, Səmimi Fərhad, Aqil M. Quliyev, Namiq Ağayev, Vüqar Hacıyev, Cavanşir Məhərrəmov, Rəsmiyyə Nurməmmədova, Qızılgül Quliyeva və başqaları çəkilib.

Psixoloji dram janrında olan filmdə İkinci Qarabağ müharibəsinin iştirakçıları, Dövlət Sərhəd Xidmətinin hərbçiləri, eləcə də sağlamlıq imkanları məhdud istedadlı şəxslər də iştirak ediblər.

2021-ci ilin payızından çəkilişlərinə başlanılan "Köhnə çamadanlar" tammetrajlı bədii filmi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi, "RS Production" və "OYUN" inklüziv teatrı MMC-nin birgə əməkdaşlığı ilə ərsəyə gətirilib. Ekran əsərinin premyerası aprelin 30-da Nizami Kino Mərkəzində olmuşdu.

"Köhnə çamadanlar" sentyabrın 29-dan "CinemaPlus" kinoteatrlar şəbəkəsində nümayiş olunur.

# Vətən müharibəsi və şanlı Zəfərimizin səhnə təcəssümü

## "Qələbədir adın" tamaşası haqqında düşüncələr

Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Beynəlxalq Muğam Mərkəzində bəstəkar Pikə Axundovanın "Qələbədir adın" musiqili monotamaşasının premyerası (21 sentyabr) haqqında məlumat vermişdik.

Azərbaycan musiqi sənətində ilk olan tamaşa böyük maraq və sevgi ilə qarşılandı. Premyerada əsərin bitməsinə baxmayaraq tamaşaçıların sürəkli alqışları və sonluğu xor şəklində Dövlət Himnimizlə tamamlamaları təqdim olunan layihənin bəyənildiyinə işarə idi. Elə bu səbəbdən də tamaşadan sonra müəlliflər və mütəxəssislərin fikrini öyrənmək bizim üçün də maraqlı oldu.

İlk olaraq əsərdə baş rolu ifa edən Əməkdar artist, tanınmış vokalçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru İlham Nəzərovla həmsöhbət olduq: "Bu ilin yanvarında bəstəkar Pikə Axundova ilə danışıb belə bir ideyamın olduğunu bəyan etdim. "Şuşa İli"nə töhfə olaraq qala-şəhərimizə həsr olunan monotamaşa hazırlamaq istədiyimi dedim. O, bu tamaşanı necə gördüyümü soruşanda əsərdə bütün obrazları canlandırmaq və səsləndirmək imkanım olduğunu söylədim. Qeyd etdim ki, mənə gözəl sözlü libretto və ona uyğun musiqi gərəkdir. Mən bəstəkara obrazları və partiyaları – Şuşanı, Xarıbülbülü, Ananı, oğulu da xatırlatdım. Pikə xanım dedi ki, librettonu Kəmalə Abiyevanın yazması məqsədəuyğun olar. Beləliklə də biz yanvar ayından başladığımız bu ideyanı tamamlayaraq sentyabrın 21-də təqdim etdik".

Həmsöhbətim tamaşanın vokal ifaçısı üçün çox mürəkkəb olduğunu deyir: "Səhnə əsərində soprano, mezzo-soprano, bariton və tenor səs tembrlərinin şahidi oluruq. Həm akademik vokal, həm estrada, hətta meyxana janrına da rast gəlirik. Obrazların fərqliliyi və qısa müddətdə bir obrazdan digərinə keçid ifaçıdan böyük professionallıq tələb edir. Çox sevindiricidir ki, tamaşaçılar premyerada bizim işimizi yüksək qiymətləndirdilər. Bildirmək istərdim ki, tamaşada şəhidin oğlu obrazında övladım – beynəlxalq müsabiqələr laureatı Səid Nəzərli çıxış etdi. O, bu tamaşada həm vokal, həm də qiraətçi kimi iştirak edirdi. Bu da məni çox sevindirdi və qürur duyuram".

İ.Nəzərov bildirir ki, tamaşa Mədəniyyət Nazirliyinin nümayəndələri tərəfindən dinlənilərək festivalın proqramına daxil edilmişdi. Musiqili monotamaşanın səmimiliyi ondadır ki, biz burada bəhs olunan halları yaşamışıq, düşmən vandalizmi ilə rastlaşmışıq: "Ona görə də mən bu obrazları, sadəcə, oynamırdım həm də yaşayırdım. Düşmənin nə qədər mənfur, insafsız və psixi problemlərə malik olması da ön plana çəkilmişdi. Libretto müəllifi Kəmalə Abiyeva müharibə və şəhidlərimiz haqqında bir çox kitablar və məqalələr yazıb. Bu mövzuya bələddir. Tamaşa Pikə Axundova ilə ilk işbirliyimizdir və Azərbaycanın musiqi tarixinə ilk musiqili monotamaşa kimi yazıldı. Tamaşaçıların fikri, zalda olmayıb sosial şəbəkələrdə səhnə əsərini izləyən musiqişünasların rəyləri müsbətdir. Yaradıcı heyət olaraq sevinc hissi duyuruq".

Bəstəkar Pikə Axundova musiqini mətnə uyğun yazdığı üçün mətnin onu yönləndirdiyini dedi. "Mən onu beynimdə canlandırsam da, əsas istiqamət verən mətnin ruhu və obrazlar idi. İlkin variantdan sonra bir neçə hissədə musiqiyə dəyişiklik etdim. Ana və Həsrət səhnələrində ilk variantda olduqca lirik, romans tipli musiqi alınmışdı. Sonradan Həsrəti mistik bir musiqi ilə ahəngləşdirdim. Düşünürəm ki, bu daha uğurlu oldu. Qarşıma qoyduğum məqsədlərdən biri də o idi ki, əsərdə müxtəlif rəng çaları və xarakterdən istifadə edim. Maksimum nə mümkün idisə, ona da can atdım. Hissələr arasında kontrastlığı qorumağa çalışdım ki, bənzərlik olmasın, hər hissə fərqli palitrası və ruhu ilə seçilsin".

Musiqinin təsir gücü bu əsərdə danılmaz faktorlardan biridir. Bəstəkar əsəri yazarkən hansı hisslər yaşayıb?

Pikə Axundova bu barədə belə deyir: "Musiqinin təsiri ilə bağlı deyim ki, bu, Vətən savaşımızda qəlbimdə bəslədiyim duyğular idi. Bir növ o duyğuların hayqırtısını bu əsərdə ifadə etmişəm.



Sanki səhnədə möcüzəvi bir hal baş verirdi. Tamaşaçılarla səhnə arasında elə bil bir körpü atılmışdı. Vətən sevgisi tamam başqa bir sevgidir. Bu musiqi Vətənimə böyük sevgimin ifadəsidir. Bəzən vətənpərvərlik hissləri lazımsız pafoslarla bəzədilir. Vətəni ali hisslərlə sevmək toxunulmaz duyğudur. Tamaşanın musiqisində çatdırmaq istədiyim də bu idi – Vətəni pafossuz sevmək".

"Qələbənin adı musiqidə daha çox hansı notda özünü tapır" sualımıza cavabında bəstəkar bildirdi ki, əsərin başlanğıc və son tonu "re"dir. Nə major və nə də minordur: "Bu, bütöv tonlu qammadır. Harada ki yarım ton yoxdur, səs qamması bütöv ton üzərində qurulur. Çox sevdiyim rus bəstəkarı A.Skryabin musiqi notlarını rənglərdə təsəvvür edirdi və onun düşüncəsində "re" sarı rəngin tərənnümü idi. Əsəri yazanda deyil, indi bu barədə düşündüm. Sarı günəşin rəngidir və rəmzidir. Bəlkə də burada özüm də fərqinə varmadan belə bir konsepsiya qurmuşam ki, şəhidlərimiz öz canlarından keçərək Qarabağımıza günəş kimi işıq saçdılar. Premyerada səhnədə tək özüm ifa etdim. Bütün ruhumu və duyğularımı qoydum həmin gün səhnəyə. Sənətin qəribə mistikası var, onun uğurundan yeni ideyalar yaranır. Müəllimlərim, ailəm və tələbələrimin sevgisindən doğan yeni bir həvəs və ruh. Hər uğur həm də böyük bir məsuliyyətdir mənim üçün. Bundan sonra bu etimadı doğruldacaq uğurlu əsərlər təqdim etməliyəm".

Tamaşanın libretto müəllifi yazıçı-şairə Kəmalə Abiyeva deyir ki, 44 günlük Vətən müharibəsi başa çatmadan şəhidlərə həsr olunan yazılar yazmağa başlayıb: "Bu mövzuda yazıları indi də davam etdirirəm. Qəhrəmanların həyatını öyrəndikcə müharibənin ağrılarını, Qələbənin böyüklüyünü yaşayırdım. İki kitab hazırlasam da, mənə az gəlirdi. Bir çox mahnılar yazılırdı. Mən də şeirlər qələmə alırdım. Dövlət başçısı 2022-ci ili "Şuşa İli" elan edəndə fərqli nəsə etmək haqda düşünürdüm. Pikə xanım müraciət edərək İlham Nəzərovun Şuşa ilə bağlı monotamaşa təklifi olduğunu dedi və mən də razılaşdım. Sanki



eyni duyğuları yaşamışdıq. Süjet xəttini o andaca gördüm. Əvvəlki Şuşa, işğal olunmuş Şuşa və azad Şuşa... Librettonu yazarkən ağladım, sevindim və qürurlandım. Pikə xanıma göndərəndə dedi ki, mətndə musiqini eşidirəm. Musiqinin sözlərə yatmasına özüm də heyran oldum. İlhamın ifası isə əsəri tamamladı. Onun aktyor oyunu, söz və musiqi duyumu valehedici idi. Şəhid övladı obrazı da Səid Nəzərlinin ifasında uğurlu alındı. Bütün zəhməti keçənlərə təşəkkür edirəm".

Əməkdar incəsənət xadimi, musiqişünas Zümrüd Dadaşzadə tamaşanı musiqi sənətimizdə yeni hadisə adlandırır: "İstedadlı insanların bir araya gəlməsi nəticəsində bu reallaşıb. İlham Nəzərov kimi geniş səs imkanlarına malik ifaçı və aktyorun olması bu tamaşanı mümkün etdi. Pikə Axundovanın yaratdığı musiqi, libretto hamısı bir-birini tamamlayırdı. Əsas tamaşanın səmimiliyi idi. Böyük həyəcanla izlədik. Əgər hansısa məqamda o səmimiyyətə xələl gəlsəydi, tamaşanın konsepsiyası pozulacaqdı. Bu, məni, yaxşı mənada, təəccübləndirdi və heyran etdi. Zalda əyləşənlərlə səhnədəkilərin ürəyi bir döyünürdü. Səhnədən gələn enerji bütün zalı eyni hisslərə qərq etmişdi. Hər kəs ürəkdən gələn tamaşanı izləyirdi. Bu səhnə işi Qələbəmizə gözəl töhfə oldu".

Əməkdar mədəniyyət işçisi, yazıçı-dramaturq İlqar Fəhmi tamaşanı yaradıcı ruhu olan iki azərbaycanlı xanımın xalqımızın başına gətirilən faciələr, Vətən müharibəsi dönəmindəki hiss və duyğularının səmimi ifadəsi kimi səciyyələndirir: "O səmimi duyğuları mətn və musiqidə görə bildik. Əsərin gözəlliyi ondadır ki, hər kəsin anlaya biləcəyi, amma bununla bərabər dərin, məzmunlu və tutumlu hisslər əks olunub. Tamaşa minimalist üslubda olsa da, gözəl hazırlanmışdı. Aktyor oyunu, rejissor axtarışları, monitorda videogörüntülər və onların səhnədə baş verən hadisələrlə paralelliyi gözəl alınmışdı. Təbii ki, tamaşanın bütün yükünü səhnədə İlham Nəzərov və bəstəkar Pikə Axundova çəkdi. Onlar bu yükü uğurla apardılar. Ən əsası da tamaşaçı bir an belə darıxmadı. Tamaşa zəncirvarı şəkildə, yüksək templə, dinamika ilə elə təqdim olundu ki, həm göz baxırdı, həm də ruh qəbul edirdi. Yaradıcı heyəti təbrik edirəm".

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində qüdrətli Ordumuzun şanlı Qələbəsini simvolizə edən musiqili monotamaşanın rejissoru Mirsahib Ağazadə və Elçin Məmmədovdur.

**Lalə Azəri**

№72 (1945)
30 sentyabr 2022
www.medeniyyet.az

# Tarix yazaraq tarixə yazılanlar...

## Muzeylərdə Anım Günü münasibətilə tədbirlər keçirilib

27 Sentyabr – Anım Günü ölkəmizdə böyük hüzn və qürur hissi ilə qeyd olundu. Paytaxtda fəaliyyət göstərən muzey müəssisələrində keçirilən tədbirlərdə də Vətən uğrunda canını fəda edən igid oğulların xatirəsi anılıb, tarixi Zəfərimizin əhəmiyyəti vurğulanıb.

Azərbaycan İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək və vətənpərvərliyin təbliği məqsədilə ötən ildən etibarən davam edən “Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün” adlı layihə çərçivəsində Anım Gününə həsr olunmuş “Tarix yazaraq tarixə yazılanlar” adlı tədbir-sərgi keçirilib.

Tədbir iştirakçıları çıxış edərək 2020-ci il sentyabrın 27-də Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozması ilə Azərbaycan Silahlı Qüvvələrinin erməni təxribatlarının qarşısını almaq üçün başlatdığı əks-həmlə əməliyyatlarından və düşmən üzərində tarixi Qələbə qazanmağımızdan bəhs ediblər.









Sonda tədbir iştirakçıları Vətən müharibəsi şəhidləri – baş leytenant Həsənağa Abdullazadə, Cəmil Nəcəfov, gizir Rüfət Məmmədli, kiçik gizir Şahmar Mənəfov, əsgərlər Rəşad Ağayev, Mirağa Əliyev, Babək Mahmudlu, Pəhliyə Qəribova məxsus muzeyin fondlarında qorunub saxlanılan 90-a yaxın şəxsi əşyanın yer aldığı sərgi ilə tanış olublar.

“Tarix yazaraq tarixə yazılanlar” sərgisi oktyabrın 3-dək davam edəcək.

***

Abdulla Şaiqin Mənzil-Muzeyində Anım Günü münasibətilə “Zəfərə aparan yol” adlı tədbir və yazıçı-jurnalist Tamilla Teymurqızının “Ruhum qaldı Qarabağda” kitabının təqdimat mərasimi keçirilib.

Dövlət Himni səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mənzil-muzeyin direktoru Ülkər Talıbzadə, Cəlil Məmmədquluzadənin Ev-Muzeyinin direktoru Yeganə Qasımlı, Nəriman Nərimanovun Xatirə Muzeyinin əməkdaşları, təqdimatı keçirilən kitabın müəllifi Tamilla Teymurqızı, şəhid ailəsi Çimnaz Hüseynova və başqalarının çıxışları dinlənilib. Bildirilib ki, 44 gün davam edən müharibə Azərbaycan Ordusunun parlaq Qələbəsi ilə nəticələndi. Hər qarışında şəhid qanı axan torpaqlarımız Azərbaycan xalqının igid oğullarının qanları bahasına işğaldan azad edildi. Vətən yolunda şəhadətə yüksələn heç bir şəhidimizin qanı yerdə qalmadı. Düşmənə döyüş meydanında divan tutuldu.

Tədbirdə Xətai rayonu 58 saylı tam orta məktəbin şagirdləri vətənsevərlik ruhlu şeirlər səsləndiriblər. Kanadadan gəlmiş həmyerlimiz Sevinc xanımın qızı balaca Ayla Abbas Səhhətin “Vətən” şeirini söyləyib. Sonda şəhidlərin əziz xatirəsinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

***

Səməd Vurğunun Ev-Muzeyində Vaqif Səmədoğlu Mərkəzinin birgə təşkilatçılığı ilə “44 günlük Vətən müharibəsi” adlı tədbir keçirilib. “AYTAM” Uşaqların Mədəni Maarifləndirilməsi İctimai Birliyi və Nərimanov rayonu 45 nömrəli tam orta məktəbin şagirdlərinin iştirak etdiyi tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Vətən müharibəsinə həsr olunmuş videoçarx və qəhrəmanların fotoları nümayiş etdirilib.

Səməd Vurğunun Ev-Muzeyinin rəhbəri Nüşabə Babayeva-Vəkilova tədbiri açaraq Azərbaycan Ordusunun qazandığı böyük Qələbənin əhəmiyyətindən, hərbçilərimizin şücaətindən danışıb. Qeyd edib ki, bu tədbirin əsas məqsədlərindən biri qəhrəman əsgərlərimizin Vətənə olan sevgisini gənc nəslə aşılamaqdır. Muzeyin böyük elmi işçisi Səidə Abdullayeva bildirib ki, minlərlə igid əsgər və zabitimizin qanı və canı hesabına torpaqlarımız düşməndən azad olunub. “AYTAM” İctimai Birliyinin rəhbəri Aygün Zamanova şanlı Zəfərə gedən yolda misilsiz şücaət göstərən hərbçilərimizdən bəhs edib.

45 nömrəli məktəbin şagirdlərindən Türkan Nəcəfova “Ağlama, şəhid anası” və özünün yazdığı “Can Şuşam”, Nihad Şafahatov Xalq şairi Zəlimxan Yaqubun “Ordum varsa, yurdum var” və tədbir iştirakçıları birgə Səməd Vurğunun “Azərbaycan” şeirlərini səsləndiriblər.





Sonda şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar, xatirə şəkilləri çəkdirilib.

***

Bülbülün Memorial Muzeyində dahi müğənninin adını daşıyan Orta İxtisas Musiqi Məktəbi ilə Anım Gününə həsr olunan tədbir keçirilib.

Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən muzeyin direktoru Fərqanə Cabbarova 44 günlük Vətən müharibəsi barədə söz açıb. Bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu misilsiz şücaət göstərib, işğalçı düşmən üzərində parlaq Qələbə çalıb.

Tədbir Bülbül adına Orta İxtisas Musiqi Məktəbi şagirdlərinin ifaları ilə davam edib.

***

Hüseyn Cavidin Ev-Muzeyində də Anım Günü Münasibətilə tədbir təşkil olunub. “Şəhidlərin əziz xatirəsi ürəklərdə yaşayır” adlı tədbirdə Vətən fədailərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Muzeyin baş direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı “Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” sərəncamının əhəmiyyətindən danışıb. Qeyd edib ki, 44 günlük Vətən müharibəsində əsgər və zabitlərimizin göstərdiyi misilsiz qəhrəmanlıqlar tariximizə əbədi yazılıb. Xalqımız bu şanlı tarixlə daim qürur duyacaq.

Sonda muzey tərəfindən hazırlanmış “44 günün qəhrəmanları” mövzusunda sərgi təqdim olunub.

***

Anım Günü ilə əlaqədar L.və M.Rostropoviçlərin Ev-Muzeyində “Qəhrəmanımızı tanı!” adlı tədbir keçirilib.

Muzeyin qarşısında Müdafiə Nazirliyinin tərkibində fəaliyyət göstərən Hərbi Hava Qüvvələri orkestrinin ifasında Azərbaycanın Dövlət Himni, “Qələbə” marşı, Vətən müharibəsi qazisi, muzeyin əməkdaşı, bəstəkar Vüqar Məmmədzadənin “Zəfər” marşı səsləndirilib.

Sonda muzeydə Anım Günü tədbirində istedadlı musiqiçi, tuba ifaçısı, şəhid Tamerlan Mahmudov haqqında qısa film, çıxış etdiyi konsertlərdən videokadrlar nümayiş olunub. Tədbirdə həmçinin Prezident təqaüdçüsü, bəstəkar, qazi Vüqar Məmmədzadəyə həsr olunmuş “Bir addım da olsa...” filmi göstərilib.

# “Sən qayıdacaqsan” – Bakı Bələdiyyə Teatrının tamaşası nümayiş olunub

27 Sentyabr – Anım Günü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində Bakı Bələdiyyə Teatrının təqdimatında Əməkdar artist Bəhruz Vaqifoğlunun ”Sən qayıdacaqsan” pyesi əsasında eyniadlı tamaşa nümayiş olunub.



DTX-nin mətbuat xidmətindən bildirilib ki, tarix boyu Azərbaycan xalqına qarşı xüsusi amansızlıq və qəddarlıqla törədilən kütləvi qırğınlardan, müharibələrdə yaxınlarını itirən insanların acı taleyindən bəhs edən tamaşanı Vətən müharibəsi iştirakçıları, DTX-nin əməkdaşları və Azərbaycan təhlükəsizlik orqanlarının veteranları, DTX-nin Heydər Əliyev adına Akademiyasının kursantları və hərbi hissəsinin əsgərləri izləyiblər.

Tamaşanın qəhrəmanları müharibənin özünü və sonrakı fəsadlarını yaşayan insanlardır. Hər bir qəhrəman hər gün eyni vaxtda qatar yoluna tələsir, eyni vaxtda qatar yolunda müharibədə itirdiklərinin yolunu gözləyir. Əsərin sonunda qəhrəmanların həsrətinə son qoyulur.

Bəhruz Vaqifoğlunun quruluş verdiyi tamaşada Əməkdar artistlər Hüsniyyə Mürvətova, Rafiq İbrahimov, eləcə də Mehman Abdullayev, Zülfiyyə Qurbanova, Toğrul Rza, Zülfiyyə Məmmədova, Elçin Muradov, Ülviyyə Rza, Fateh Muradov, Əzizə Həşimova rol alıblar.

# Şəhid Elşən Səfərov haqqında sənədli film hazırlanacaq

Lerik rayonunun Çayrud kənd orta məktəbi şəhid Elşən Səfərovun adını daşıyır. Elşən kəndin ilk şəhididir. 4 avqust 1970-ci ildə dünyaya göz açan bu Vətən sevdalısı Birinci Qarabağ müharibəsində könüllü cəbhəyə getmişdi. 6 yanvar 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən döyüşlərdə 23 yaşında şəhidlik zirvəsinə ucalıb. Həmin döyüşlər zamanı yaralı yoldaşlarını döyüş meydanından çıxararkən başına snayper gülləsi dəyib. Doğma Çayrud kəndində torpağa tapşırılıb.

Elşən Səfərovun canından artıq sevdiyi Vətən yolunda şəhid olmağı el-obasına başucalığı gətirib. Bu günlərdə “Səssiz dünya” işarət dilində danışan əlillərə və idmançılara dəstək İctimai Birliyi QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına “Qəhrəmanlıq salnaməsinin Elşən Səfərov zirvəsi” layihəsinin icrasına başlayıb. Birliyin sədri Aidə Səfərova bildirdi ki, layihə çərçivəsində Elşən Səfərovun həyat və döyüş yolundan qısametrajlı sənədli film çəkiləcək. Layihənin icrası noyabrın 1-dək nəzərdə tutulub.

**Zəfər Orucoğlu**

# “Türkiyə ilə Azərbaycan arasında mənəvi körpü quranların mirasından daha çox yararlanmalıyıq”

Numan Kurtulmuş 2014-2017-ci illərdə Türkiyə Baş nazirinin müavini, 2017-2018-ci illərdə mədəniyyət və turizm naziri vəzifələrini tutub. 2018-ci ildən hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin birinci müavinidir. 1990-cı illərdən peşəkar siyasətdə olmaqla yanaşı, həm də elm adamıdır, ölkənin bir sıra ali məktəblərində iqtisadiyyat, siyasi kommunikasiya və s. üzrə dərs deyib.

Onunla müsahibəmizdə Azərbaycan-Türkiyə əlaqələrinə, müxtəlif sahələrdə qurulan və inkişaf etdirilən işbirliyinə toxunduq.

*– Numan bəy, siz Türkiyə-Azərbaycan əlaqələri ilə bağlı çıxışlarınızda “Bir millət, iki dövlət” olaraq milli, dini, mədəni, tarixi köklərə əsaslanan işbirliyini gələcəyə daşımaq ümdə vəzifələrimizdən biridir” deyirsiniz. Türkiyənin hakim partiyasının rəhbərliyində yer alan şəxs kimi bu xüsusda fikirlərinizi bir qədər ətraflı eşitmək istərdik.*

– Türkiyə-Azərbaycan qardaşlığının tarixi qədimdir. Eyni regionda yerləşən, eyni millət olaraq, təbii ki, digər ölkələrlə qurulan diplomatik əlaqələrlə müqayisədə bizim əlaqələrimiz fərqlidir. Bizim milli, dini, mədəni əlaqələrimiz bir-birilə iç-içədir. Amalda, məqsəddə, niyyətdə birlik bizi qardaş edir. Biz Türkiyəmizin Azərbaycanımızla əl-ələ verib gələcəyə qalib və firavan addımlarla getməsini istəyirik. Bu kontekstdə mediada, elmi əlaqələrdə, incəsənətdə və qeyri-hökumət təşkilatlarında daha sıx əlaqələrlə, müştərək layihələrdə birləşmək lazımdır. Türkiyənin inkişaf etdirdiyi yüksək müdafiə texnologiyasının həm bilik və təcrübəsi, həm də logistik imkanları Azərbaycanda öz əksini tapır və bunun əlaqələrimizə böyük töhfə olduğunu düşünürük. Bu sahədə mübadilə daha da genişlənməlidir. Həmçinin universitetlərimizdə qarşılıqlı tələbə və elmi mübadilə kimi məsələlər bilik istehsalı baxımından mühüm tərəfdaşlıq fürsəti yaradacaq. İstərdim ki, mədəniyyət, ədəbiyyat, incəsənətin müxtəlif sahələrində daha sıx görüşlərimiz, birgə layihələrimiz olsun. Konsertlər, ədəbi məclislər, kino günləri Türkiyə və Azərbaycanın mədəniyyət dairələrində, o cümlədən gənclər arasında qardaşlıq əlaqələrini daha da artıracaq. Gənclik dedikdə ağlımıza idman yarışları da gəlir. Müasir idman növləri ilə bərabər, köçəri oyunları kimi əcdadlarımızın mədəni irsinə də diqqəti artırmalıyıq. Hər sahədə gəncləri bir araya gətirməliyik.

*– Azərbaycanla Türkiyənin hərtərəfli birliyinin güclənməsinə töhfə verən 2021-ci il 15 iyun tarixli Şuşa Bəyannaməsini necə dəyərləndirirsiniz?*

– Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsində birgə maraqlarımızın qorunmasında siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrində potensiallarının, imkanlarımızın birləşdirilməsinin vacibliyi qeyd edilib. Şuşa Bəyannaməsinə əsasən, iki ölkə həm hərbi, həm də müdafiə sahəsində birgə əməkdaşlıqla fəaliyyət göstərə biləcək. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bunun aradan qaldırılması məqsədilə beynəlxalq hüquq prinsiplərinə müvafiq birgə addımlar atılacaq, qarşılıqlı yardım göstəriləcək. Şuşa Bəyannaməsi Türkiyə və Azərbaycanı milli müdafiə mövzusunda möhkəm ittifaqlarla bir-birinə daha sıx bağlayır. Eyni zamanda qeyd olunur ki, Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində birgə səylərimiz davam edəcək. Düşünürəm ki, xüsusilə bu hissə çox vacib, gələcəyə yönəlmiş məqamdır.



*– Bu mövzuda çıxışlarınızda bir məsələni də vurğulayırsınız ki, Ermənistan öz xalqının maraqlarını nəzərə alaraq Qafqazda sülh üçün çalışmalıdır. Amma Ermənistan həmişə sülh əvəzinə münaqişə variantına üstünlük verir...*

– İki il əvvəl Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi və bizim üçün də qürurverici olan Zəfərə imza atdı. Prezidentimiz Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə Azərbaycanın bu haqq mübarizəsində onun yanında oldu və bundan sonra da olacaq. Uca Rəbbimizə şükürlər olsun ki, Azərbaycan sayəsində Türk dünyasına belə bir zəfəri bəxş etdi. Əslində, bu, bütün bəşəriyyətin zəfəridir, çünki zülmə qarşı qürur və əzm qalib gəlib. Ona görə də mən deyərdim ki, Qarabağın işğaldan qurtuluşu bəşəriyyət üçün mühüm nümunədir. Sualınızın cavabı isə, əslində, Ermənistanda demokratiya və qonşuluq mədəniyyətinin olub-olmamasından asılıdır. Onlar Azərbaycanla münasibətlərinə dövlət məsələsi kimi baxmır, bundan daxili siyasətlərinin tərkib hissəsi kimi istifadə edirlər. Bütün bunlar da onu göstərir ki, Ermənistan hələ də bu mədəniyyəti mənimsəyə bilməyib.

*– Sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının azad edilməsinin 104-cü ildönümü tamam oldu. Bu tarix barədə fikirləriniz necədir?*

– Sualınız mənə Azərbaycanda məşhur olan “Lalələr” mahnısını xatırlatdı. Bu mahnının Qafqaz İslam Ordusunun şərəfinə yazıldığı bildirilir. Qafqazın qırmızı lalələri sanki şəhidlərimizin al qanıydı. 1918-ci il sentyabrın 15-də erməni və bolşevik işğalı altında olan Bakını azad edən Nuru paşanı və onun komandanlığındakı Qafqaz İslam Ordusunun əsgərlərini hər zaman böyük ehtiramla və qürurla yad edirik. Azərbaycanla qəlbimiz bir, canımız bir, sözümüz bir, nəğməmiz, sevincimiz, kədərimiz birdir. Bu yerdə bizi eyni ruhla səsləşən, ortaq mənəvi köklərimizi tapan ədiblərimizi, müdriklərimizi də yad etmək yaxşı olardı. 1900-cü illərdə Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələri olan Hüseyn Cavid, Məhəmməd Hadi, Əhməd Cavad kimi ədiblər, İstanbul şair və yazıçıları Əbdülhəq Hamid, Tofiq Fikrət, Rəcaizadə Əkrəm və xüsusilə Mehmet Akif Ersoy ilə sıx əlaqədə olublar. Onlar Türkiyə ilə Azərbaycanı, İstanbulla Bakını birləşdirən mənəvi-mədəni körpüləri qurdular və bizlərə bir-birilərinin kölgəsində böyüyən fidan bağçaları miras qoydular. Biz bu gün o mirasdan daha çox yararlanmalıyıq.

*– Son vaxtlar Azərbaycan və Türkiyə mediasının ortaq fəaliyyətinin önəmindən bəhs edilir, siz də bu barədə fikir bildirmisiniz. Bu gün Azərbaycan mediasına baxsaq, gündəlik məlumatların önəmli qismi, bəlkə də üçdəbiri Türkiyə ilə bağlı olur. Eyni tendensiyanın Türkiyə mediasında intensivləşməsi üçün hansı addımlar atılmalıdır?*

– Türkiyədə mətbuat azadlığına çox böyük diqqət yetirilir. Bu prinsip bizə mətbuat tariximizin başlanğıcından qalıb. Azad mətbuat həm keçmişdə, həm də bu gün ölkəmizdə ictimaiyyətin səsi kimi üzərinə düşən vəzifəni yerinə yetirir. Mediamızın dəyərləri arasında demokratiya, azadlıq, sülh, tərəqqi və inkişaf kimi prinsiplər var ki, bunlar həm də Azərbaycan mediasının ortaq nöqtələridir. Onu da deyim ki, Türkiyə cəmiyyəti və mediası Azərbaycanda baş verən bütün prosesləri böyük maraqla izləyir. Təbii ki, mediamızı daha sıx bir araya gətirəcək şəraiti təmin edə bilərik və etməliyik.

**Mehparə Sultanova**
**Ankara**

# Ölməzliyə ithaf

Hər il Azərbaycan professional musiqi sənəti və milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum günü ilə başlayan və dahi sənətkarın adını daşıyan beynəlxalq musiqi festivalının bu il (18-26 sentyabr) də zəngin proqramı vardı. 12-14 sentyabrda Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribatının qarşısını alarkən həlak olan şəhidlərimizin ruhuna dərin ehtiram olaraq proqramda bir sıra dəyişikliklər zərurəti yaransa da, ümumilikdə festival mədəni həyatımızda əlamətdar hadisəsi kimi yadda qaldı. Festivalın konsertləri ölməzliyə qovuşan Vətən övladlarının xatirəsinə sənət ithafı idi.



Festival çərçivəsində sentyabrın 24-də Kamera və Orqan Musiqisi Zalında Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyevanın bədii rəhbəri olduğu "Detaşe" violonçelçilər ansamblının təqdim etdiyi konsert də "Şəhidlərə ithaf" adlanırdı. Hər dəfə "Detaşe" ansamblının proqram tərtibinə fikir verərkən seçilən əsərlərin ardıcıllığının düşünülmüş dramaturji məzmuna görə qurulduğu xüsusi nəzərə çarpır. Budəfəki konsert də istisna deyildi.

Konsert alman bəstəkarı Qeorq Fridrix Hendelin "Passakaliya"sı ilə başladı. Bəstəkarın 7 saylı sol minor, klavesin süitasının son bölümü olan əsər Qərbi-Avropa klassik irsindən bu günümüzə qədər gəlib çatan populyar mövzulardan biridir. Sarabanda, çakona kimi qədim rəqslər qrupuna aid olan passakaliya (ispan mənşəli rəqsin tərcüməsi "küçə yürüşü" deməkdir) da dəyişməz bas özəyin (basso ostinato) üzərində qurulan, minor ruhlu variasiya ardıcıllığından ibarətdir. İfaçılarımızın təfsirində "Passakaliya"nın məzmunundakı lirika ilə yanaşı, qəhrəmani və patetik ahəng olduqca inandırıcı səslənərək dinləyiciləri musiqi axşamının axarına köklədi.

Növbəti kompozisiya XIX əsr romantizminin görkəmli nümayəndəsi, Avstriya bəstəkarı Frans Şubertin Lya major "Adajio"su idi. Həyatın təzadlı dönəmini əksər insanların duyduğu kimi öz əsərlərində əks etdirən Şubert burada da üslubuna sadiq qalıb. Serenada təbiətli mahnıvarı pyesin üçsəsli versiyası mövzunun əsasını təşkil edən işıqlı məhəbbət ruhunun parlaq açımını şərtləndirir.

Daha sonra müasir alman bəstəkarı İoahim Yohovun "Antonionun yuxusu" adlanan və italyan sənətkarı Antonio Vivaldiyə həsr edilən kompozisiya təqdim olundu. Bu əsər ümumən proqram boyu royalın iştirakı olmadan səsləndirilən yeganə nümunə idi. İfaçılar solist səviyyəsində yazılan partiyaların öhdəsindən uğurla gəldilər.

Sonra isə istedadlı pianoçu-konsertmeyster Səbinə Muradovanın həssas müşayiətində ansambl tərəfindən melodiyasının füsunkarlığı ilə heç kimi biganə qoymayan F.Şubertin "Ave Mariya"sı səsləndi. Şotland şairi Valter Skottun "Göl mələikəsi" poemasında əsl adı "Ellenin duası" adlanan vokal kompozisiyada qəhrəmanın ilahi varlığa ünvanladığı diləklərdə Yer üzünü bütün pisliklərdən qurtarmaq, insanlığa mərhəmət kimi bəşəri çağırış var. Təsadüfi deyil ki, dini inamından asılı olmayaraq dünyanın istənilən konsert məkanında həmin əsər müxtəlif alətlərdə səslənərkən dinləyicilərin sayğısı ilə qarşılanır.

Səhnəyə hər çıxışında repertuar fərdiliyi ilə seçilən professor Zəhra Quliyeva bu dəfə özünə sadiq qaldı. Ffransız bəstəkarı Qabriel Forenin gənclik illərinə aid və müğənni Polina Viardoya həsr elədiyi "Oyanış" romansının instrumental variantı bu dəfə solo və ansambl formasında təqdim olundu. Belə təfsir üslubu əsərin məzmununa başqa bucaqdan baxmağa sövq edir. Şəxsən mənim gözlərim qarşısında qərənfillərə qərq olan şəhid məzarı önündə matəm sükutuna dalmış ana obrazı canlandı.

Konsertin proqramı haqqında danışarkən daha üç əsər barədə söz demək istərdim. Aqşin Əlizadənin "Rəqiblər" filmi üçün yazdığı həssas lirika ilə zəngin musiqi hər dəfə dinləyicidə ötənlərlə bağlı nostalji hisslər yaradır. Filmə tamaşa edənlər həmin musiqinin yağışlı, çiskinli bir havada iki həmkarın söhbəti zamanı səsləndiyini yaxşı xatırlayırlar. Həmin axşam isə "Detaşe"nin təfsirindəki kompozisiya sanki Şəhidlər xiyabanı üstünə yağan göylərin aramsız göz yaşı təəssüratı yaradırdı.

Xalq artisti, professor Fərhad Bədəlbəylinin "İthaf" pyesinin "Detaşe" ansamblı üçün işlənməsi gənc bəstəkar Ağa Əliyevə məxsusdur. Milli melizmlərin müasir harmonik vasitələrlə sintezi pyesin romantik əhvalını gücləndirir. "İthaf" bütün şəhidlərimizin xatirəsinə ünvanlanan musiqili sayğıdır.

Musiqi axşamının finalı Qara Qarayevin "İldırımlı yollarla" baletindən iki kontrast fraqmentlə sona çatarkən hamının təxəyyülündən ölməzliyə qovuşan qəhrəmanların qısa, lakin mənalı həyatının bir film kimi keçdiyini desəm, yəqin yanılmaram. Birinci epizodda mövcud əhval-ruhiyyə dönəmində hüzur notları eşidilsə də, ikinci parçanın çılğınlığı mübariz ruhun daima sönməyəcəyinə, əksinə, Vətənimizin bir qarış torpağına belə göz dikən yağıya qarşı daim barışmaz mücadiləyə bir çağırış idi.

Bu il "Detaşe" ansamblının 15 yaşı tamam olur. Hər konsert bir yaradıcılıq hesabatı olaraq istənilən kollektivin kamillik səviyyəsinə doğru atılan yeni addım deməkdir. Elə haqqında söhbət açdığım konsertdə səslənən əsərlərin daxili məzmunundan irəli gələn emosional hisslərin artıb-azalma dərəcəsi ansamblın həssas sinxronluğunda dolğun təsir bağışlayırdı. Beləliklə, "Detaşe" qarşısına qoyduğu missiyanı uğurla yerinə yetirir. Üzeyir festivalında çıxış da buna bariz nümunədir.

Sonda bir daha şəhidlərimizə Tanrıdan rəhmət diləyirik.

**Yavər Neymətli**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Təbrizdə milli hərəkata dəstək olan sənətkar

## Aşıq Hüseyn Cavan Cənubi Azərbaycanın "Xalq artisti" adına layiq görülmüşdü



XX yüzillikdə otaylı-butaylı Azərbaycan aşıq sənətinin ünlü simalarından biri də Əməkdar mədəniyyət işçisi Hüseyn Cavan olub. O həm gözəl saz ifaçılığı, həm də aşıq şeirinin müxtəlif janrlarında qələmə aldığı diqqətəlayiq bədii nümunələrlə ədəbi-mədəni mühitdə böyük şöhrət qazanıb.

Hüseyn Mikayıl oğlu Əliyev (Hüseyn Cavan) 1916-cı ildə Cənubi Azərbaycanda – Qaradağ mahalının Uti kəndində yoxsul bir ailədə dünyaya göz açıb. Çox kiçik ikən atası qəflətən vəfat edir, ailə çətinliklərlə üzləşir. Anası Zöhrə xanım oğlu ilə birgə Şimali Azərbaycana pənah gətirir. Ağdam rayonunun Şərəfxanlı kəndində məskunlaşırlar.

Hüseyn yeddi yaşından əzaba qatlaşır, nökərçilik edir, qoyun-quzu otarır. Qoyun sürüsünün ardınca yamaca qalxarkən özözünə zümzümə edir. Onun məlahətli səsi çoban yoldaşlarının diqqətini çəkir. El yaylağa gedərkən kəndin ağsaqqalı Hüseyni Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musa ilə tanış edir. Hüseyn səkkiz il onun yanında qalır, sənətin sirlərini öyrənir. Yavaş-yavaş el şənliklərinə də qatılır, aşıq kimi tanınmağa başlayır. Şifahi xalq ədəbiyyatını dərindən mənimsəyir. O, ifaçılıqla bərabər, yaradıcı sənətkar olaraq da özünü göstərir. Bədahətən söylədiyi şeirlər, oxuduğu havacatlar dinləyicilərin ruhunu oxşayır.

Aşıq-şair 20-25 yaşlarında qələmə aldığı "Təbriz" rədifli şeirində elm, söz-sənət mərkəzi, arzuların şəhərinə olan həsrətini belə ifadə edirdi:

*Sarılıb boynuna bir körpə sayaq,*
*Doyunca hüsnünə baxaydım, Təbriz.*
*Sən bir dağ olaydın, mən də bir bulaq,*
*Şırhaşır sinəndən axaydım, Təbriz.*

Şeirlərində tez-tez Güney Azərbaycanın dağlarını, şəhərlərini yada salan şair "Qaradağ" rədifli qoşmasında doğma elini Təbrizlə müqayisə edir:

*Təbriz bir anadır, sən də oğlusan,*
*El bilir, ürəkdən ona bağlısan.*
*Oğlun Səttarxandan sinə dağlısan,*
*Onunçün ağarıb başın, Qaradağ...*

Aşıq Hüseyn 1938-ci ildə Cənubi Azərbaycan mənşəli olduğundan sovet Azərbaycanını tərk etməli olur. Təzə-təzə isinişdiyi dost-tanışlarından ayrı düşür. Həmin il Təbrizdə məskunlaşır.

Onun ilk qələm təcrübəsi olan "Gül Azərbaycan", "Oyan, vətəndaşım", "Ana vətən" və s. şeirləri Təbrizdə nəşr edilən "Vətən yolunda" qəzetində dərc olunub. O, Cənubi Azərbaycanda Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi milli demokratik hərəkatın alovlandığı günlərdə sazı və sözü ilə fədailəri qələbəyə ruhlandırıb. Cənubi Azərbaycan Milli Hökuməti onun bu fəaliyyətini "21 Azər" medalı mükafatlandırıb. 1946-cı ilin martında Təbrizdə Dövlət Dram Teatrı təşkil olunur. Aşıq-şair direktor müavini vəzifəsinə təyin edilir. Rəsmi tədbir və şənliklərdə coşqun inqilabi ruhlu nəğmələri ilə çıxışlar edir. Təbrizdə aşıqlar ansamblı yaradır. Əməyi yüksək qiymətləndirilən Hüseyn Cavan Azərbaycan Demokrat Firqəsi tərəfindən "Xalq artisti" fəxri adına layiq görülür.

Azərbaycan Demokrat Firqəsi süqut etdikdən sonra, 1946-cı ildə Aşıq Hüseyn Cavan bir daha Sovet Azərbaycanına pənah gətirir. O, vaxtının böyük hissəsini yaradıcılığa həsr edir. Üç xalq dastanı yaradır. Bir müddət sonra M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti olur.

Mənbələrdə o da qeyd edilir ki, sənətkar 1948-ci ildə Qasım İsmayılov (indiki Goranboy) rayonunun Əzizbəyov (indiki Kəhrizli) kəndinə köçür. Mərkəzdən uzaqda yaşasa da, respublika və ümumittifaq səviyyəli tədbirlərdə yaxından iştirak edir. O, Ümumittifaq Xalq Yaradıcılığı Festivalına qatılır. Moskvada "Böyük Teatr"da çıxışı alqışlarla qarşılanır. 1953-cü ildə Bakı şəhərində keçirilən Respublika özfəaliyyət incəsənət festivalının laureatı olur, birinci dərəcəli diploma layiq görülür. Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə aşıqlar ansamblının rəhbəri olur.

Aşıq Hüseyn Cavan Azərbaycanın əsrarəngiz təbiətindən vəcdə gəlib, bu gözəlliklərdən ilhamlanıb. Ölkəmizi kəndbəkənd, şəhərbəşəhər gəzən şair təbiətin hər gülünə, çiçəyinə bir nəğmə qoşur. "De, dağların bu çağından" şeirində yazır:

*Aşıq, götür telli sazı,*
*De, dağların bu çağından.*
*Eşidilsin xoş avazın*
*Xaçbulağın yaylağından.*

*Bax qartallı qayalara,*
*Bəzəkdi ulu dağlara,*
*Göz vururlar buludlara*
*Yurdumun hər bucağından.*

*Cavan Hüseyn, avazın xoş,*
*Zildən oxu, ürəkdən coş,*
*Şeir də yaz, nəğmə də qoş,*
*Dürr süzülsün dodağından.*

Güneyli-Quzeyli Azərbaycanda istedadlı sənətkar kimi tanınan aşıq-şairin sağlığında "Azadlıq mahnıları", "Aşığın arzuları", "Sədəfli saz", "Qoşmalar", "Danış, telli sazım" və s. kitabları işıq üzü görüb. Xalq şairi Səməd Vurğun onun yaradıcılığına yüksək qiymət verib, Azərbaycan Yazıçılar İttifaqı sıralarına qəbul edib.

Əməkdar mədəniyyət işçisi Aşıq Hüseyn Cavan 14 noyabr 1985-ci ildə, 69 yaşında vəfat edib, Goranboy rayonunda dəfn olunub. 2016-cı ildə sənətkarın 100 illik yubileyi ölkəmizdə geniş qeyd edilib.

**Savalan Fərəcov**

# "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq"

Xalq yazıçısı, akademik, Azərbaycan Dillər Universitetinin (ADU) rektoru Kamal Abdulla və AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin həmmüəllif olduqları "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" adlı kitab çap olunub. Bu barədə ADU-dan məlumat verilib.

"Ön söz"də qeyd olunur ki, qeyri-səlis düşüncə tərzi qeyri-səlis məntiq adlı elmi istiqamətdə birləşmiş və əslində, ona qədər şüurumuzu idarə edən Aristotelin formal məntiqinə qarşılıq kimi yaranıb. Bu məntiq kateqoriallıqdan uzaq, insana, onun dünyanı dərk və qəbul etmə prinsiplərinə yaxın bir düşüncə tərzidir.

Lütfi Zadənin məntiq nəzəriyyəsindən də bəhrələnərək ərsəyə gələn kitabda qeyri-səlis məntiq nəzəriyyəsində söylənilən dörd sütun – ümumi məntiq sütunu, qeyri-səlis çoxluqlar sütunu, epistemik (epistemoloji) sütun və münasibətlər sütunu haqqında bəhs olunur. Türklərin qədim dastanı olan "Kitabi-Dədə Qorqud" dastanı qeyri-səlis məntiq prinsiplərinə öz dil məkanında bol-bol yer verir. Bu qədim dastanın dərinində gizlənən düşüncə tərzi qeyri-səlis məntiqin dörd sütununa aid olan spesifik məntiqi sxemlərin formalaşmasına gətirir. Dastanda qeyri-səlis məntiqə dair kifayət qədər geniş dil materialı var. Bu da öz növbəsində ondan xəbər verir ki, qədim əcdadımız dünyaya baxışında daha geniş və dərin yanaşmanı üstün tutur. Seçim imkanı olan yanaşma onun tərcihi olur.

"525-ci qəzet" seriyasından işıq üzü görən kitabın redaktorları akademik Muxtar İmanov və Almaniyada yaşayan həmyerlimiz, professor Maqsud Əfəndiyev, rəyçisi professor Fəxrəddin Sadıkoğlu, nəşriyyat redaktoru Qismət Rüstəmovdur.

## Xatirə təqvimi — 1-4 oktyabr

### Azərbaycan

**1 oktyabr 1897** – Görkəmli şairə Xurşidbanu Natəvan (1832, Şuşa –1897) vəfat edib. Sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızıdır. Şuşada "Məclisi-üns" ədəbi birliyinin yaradıcısı olub. Ağdamın "İmarət" qəbiristanlığında dəfn edilib.

**1 oktyabr 1932** – Mədəniyyət xadimi Əkbər Fərzəli oğlu Fərzəliyev (1932-1999) Qusar rayonunda anadan olub. "Qızmar günəş altında", "Koroğlu" və s. filmlərdə çəkilib. 1963-cü ildə Qusarda Ləzgi Xalq teatrını təşkil edib.

**1 oktyabr 1949** – Əməkdar artist Almaz Əhməd qızı Mustafayeva (1949 – 26.12.2020) Ağdam şəhərində doğulub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktrisası olub, filmlərdə çəkilib.

**1 oktyabr 1965** – Qəzəlxan şair, Əməkdar incəsənət xadimi Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov; 18.2.1895 – 1965) vəfat edib. Nizami, Xaqani, Nəvai və b. şairlərin qəzəllərini Azərbaycan dilinə tərcümə edib.

**1 oktyabr 2018** – Bakı şəhərində dahi bəstəkar Qara Qarayevin Ev-Muzeyinin açılış mərasimi olub.

**2 oktyabr 1913** – Əməkdar incəsənət xadimi, dirijor Çingiz Zülfüqar oğlu Hacıbəyov (1913 – 18.1.1971) anadan olub.

**2 oktyabr 1915** – Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan "Açıq söz" qəzetinin ilk sayı çapdan çıxıb. 1918-ci ilədək nəşr olunub.

**2 oktyabr 1923** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 1923 – 12.9.2004) anadan olub. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, Hüseyn Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**2 oktyabr 1924** – Azərbaycanda fəhlə və kəndli müxbirlərin birinci qurultayı keçirilib.

**2 oktyabr 1935** – Şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Səyavuş İmran oğlu Məmmədzadə (1935 – 3.9.2022) anadan olub. Azərbaycan ədəbiyyatından rus dilinə, rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə tərcümələr edib.

**2 oktyabr 1962** – Əməkdar artist Elşən Şıxəli oğlu Şirəliyev (1962 – 20.12.2021) Bakıda anadan olub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub.

**2 oktyabr 1969** – Musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Seyran Əmir oğlu Qafarov (2.10.1969 – 5.11.2018) Bakıda anadan olub.

**2 oktyabr 1981** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Hənənağa Dərya oğlu Salayev (5.12.1921 – 1981) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, "Görüş", "Onu bağışlamaq olarmı?", "Aygün" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**3 oktyabr** "Türkdilli xalqların həmrəyliyi günü"dür. 2009-cu ilin 3 oktyabrında Naxçıvanda Türk Şurasının (2021-ci ildən Türk Dövlətləri Təşkilatı) yaradılması haqqında bəyannamə imzalanıb. 2010-cu ildə türkdilli dövlətlərin başçılarının İstanbul sammitində bu tarix "Türkdilli xalqların həmrəyliyi günü" kimi təsis olunub.

**3 oktyabr 1875** – Yazıçı-dramaturq Süleyman Sani Rzaqulu bəy oğlu Axundov (1875-1939) Şuşada anadan olub. Yazıçının "Qorxulu nağıllar" toplusu Azərbaycan uşaq ədəbiyyatının klassikası sayılır. "Laçın yuvası", "Eşq və intiqam", "Tamahkar" və s. pyeslərin müəllifidir.

**3 oktyabr 1887** – Əməkdar artist Ələkbər Hüseyn oğlu Hüseynzadə (1887 – 4.11.1967) anadan olub. "Arşın mal alan" (1945) filmində Soltan bəy obrazına görə Dövlət mükafatına layiq görülüb. Bu rolu Musiqili Komediya Teatrında 600 dəfə ifa edib. "Qara daşlar", "Ögey ana" və s. filmlərdə çəkilib.

**3 oktyabr 1990** – Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Naxçıvan MR Culfa rayonu ərazisində "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

**3 oktyabr 1996** – Xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyev (26.5.1914 – 1996) vəfat edib. "Söyüdlü arx", "Körpüsalanlar", "Geriyə baxma, qoca" və s. romanların, Azərbaycan dramaturgiyasında yeni mərhələ təşkil edən pyeslərin müəllifidir.

**4 oktyabr 1923** – Teatr və kino aktyoru, Azərbaycanın Xalq artisti Anatoli Solomonoviç Falkoviç (1923-1994) Bakıda doğulub. Dövlət Rus Dram Teatrında çalışıb, respublika Dövlət mükafatına layiq görülüb. "Qatır Məmməd", "Bakıda küləklər əsir" və s. filmlərdə çəkilib.

**4 oktyabr 1924** – Opera müğənnisi, Əməkdar artist Sona Şahnəzər qızı Aslanova (1924-2011) anadan olub. Opera və operettalarda (Nigar – "Koroğlu", Gülçöhrə – "Arşın mal alan") çıxış edib. "Bizim Cəbiş müəllim", "Görüş" və s. filmlərdə çəkilib. Ömrünün son illərini ABŞ-da yaşayıb və orada dünyasını dəyişib.

**4 oktyabr 1957** – Tanınmış balaban ifaçısı Məhərrəm Ağabala oğlu Mövsümov (1916-1957) vəfat edib.

**4 oktyabr 2000** – Görkəmli bəstəkar, Xalq artisti Tofiq Ələkbər oğlu Quliyev (7.11.1917 – 2000) vəfat edib. Populyar mahnıların, filmlərə ("Bəxtiyar", "Görüş", "Ögey ana", "Onu bağışlamaq olarmı?", "Qızmar günəş altında", "Nəsimi" və s.) musiqilərin müəllifidir. Azərbaycan Bəstəkarlar İttifaqının sədri olub.

**4 oktyabr 2006** – Xalq artisti Hacıbaba Ağarza oğlu Bağırov (12.6.1933 – 2006) vəfat edib. 1962-ci ildən Musiqili Komediya Teatrında çalışıb, 1996-2006-cı illərdə teatra rəhbərlik edib. Filmlərdə ("Ulduz", "Qanun naminə", "Alma almaya bənzər" və s.) çəkilib.

**4 oktyabr 2016** – Tanınmış teatr rejissoru Yusif Məmmədağa oğlu Əkbərov (2.9.1949 – 2016) vəfat edib. Sumqayıt Dövlət Dram, Musiqili Komediya teatrlarında işləyib.

### Dünya

**1 oktyabr** Beynəlxalq Musiqi Günüdür (International Music Day). UNESCO yanında Beynəlxalq Musiqi Şurasının qərarı ilə 1975-ci ildən qeyd olunur.

**1 oktyabr** Beynəlxalq Ahıllar Günüdür. BMT Baş Assambleyasının 14 dekabr 1990-cı il tarixli qətnaməsinə əsasən təsis olunub. 1991-ci ildən qeyd edilir.

**1 oktyabr 1912** – Rus tarixçisi, filosof, şair Lev Qumilyov (1912-1992) anadan olub. Qədim türk tarixinə dair əsərlərin müəllifidir: "Böyük çöl", "Hunlar Asiya və Avropada".

**1 oktyabr 1930** – Fransız aktyoru Filipp Nuare (Philippe Noiret; 1930-2006) anadan olub.

**2 oktyabr 1832** – İngilis etnoqrafı və yazıçısı Eduard Bernett Teylor (Edward Burnett Tylor; 1832-1917) anadan olub.

**2 oktyabr 1869** – Hindistanda milli-azadlıq hərəkatının ideoloqu, filosof Mahatma Qandi (Mohandas Karamchand Gandhi; 1869-1948) anadan olub.

**2 oktyabr 1914** – Məşhur sovet diktoru, SSRİ-nin Xalq artisti Yuri Levitan (1914-1983) anadan olub.

**3 oktyabr 1895** – Rus şairi Sergey Yesenin (1895 - 27.12.1925) anadan olub. 1924-1925-ci illərdə Bakıda yaşayıb. Burada 40-dək şeirini yerli mətbuatda dərc etdirib. Mərdəkanda şairin xatirə muzeyi var.

**3 oktyabr 1897** – Fransız şairi, ədəbiyyatda sürrealizmin banilərindən Lui Araqon (Alouis Aragon – Louis-Marie Andrieux; 1897-1982) anadan olub.

**3 oktyabr 1919** – Məşhur Litva şairi Eduardas Mejelaytis (Eduardas Miezelaitis; 1919-1997) anadan olub.

**4 oktyabr 1720** – İtalyan arxeoloqu, rəssam və memar Covanni Batista Piranezi (Giovanni Battista Piranesi; 1720-1778) anadan olub.

**4 oktyabr 1814** – Fransız rəssamı Jan Mille (Jean-François Millet; 1814-1875) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# “Qəlbim Qarabağdadır” – Vyanada və Budapeştdə sərgi və konsert



*əvvəli səh. 1-də*

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli çıxışında bu il 270 illik yubileyi qeyd olunan və Azərbaycan mədəniyyətinin beşiklərindən sayılan Şuşa şəhərinin tarixi, Azərbaycan mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlər barədə danışıb. Diqqətə çatdırılıb ki, “Qafqazın konservatoriyası” sayılan Şuşa 2020-ci ildə, 28 il sürən erməni işğalından azad ediləndən sonra öz tarixi-mədəni görkəmini geri qaytarır, gələn il şəhər “Türk Dünyasının Mədəniyyət Paytaxtı” olacaq.

Vurğulanıb ki, sərgidə azərbaycanlı gənclərin azad Qarabağa, sülhə həsr edilmiş rəsmləri nümayiş olunur. Bu rəsmlərdə eyni zamanda şəhidlərin xatirəsinə ehtiram göstərən Azərbaycan gəncləri sülh və daha yaxşı dünya naminə ümidlərini rənglərin dili ilə canlandırıblar.

“Arts Council Azerbaijan”ın rəhbəri Dadaş Məmmədov bildirib ki, təşkilatın əsas hədəfi Azərbaycanın mədəni dəyərlərini dünyada təbliğ etməkdir. “Şuşa İli” çərçivəsində təşkilat tərəfindən müxtəlif səpkili mədəni layihələr hazırlanıb. Təqdim olunan sərgi Avropanın bir sıra ölkələrində də nümayiş etdiriləcək.

Tədbirdə tanınmış pianoçu, beynəlxalq müsabiqələr laureatı Səidə Tağızadə Azərbaycan bəstəkarlarının Qarabağ və vətənpərvərlik mövzusunda əsərlərini ifa edib. Qara Qarayev və Fikrət Əmirovun əsərlərindən parçalar, Ramin Quliyevin Azərbaycanın şəhid əsgərlərinin xatirəsinə həsr etdiyi ballada, Pikə Axundovanın “Salam, Şuşa!” və Sevda Məmmədlinin “Laçın balladası” maraqla qarşılanıb.

***

“Qəlbim Qarabağdadır” adlı sərginin növbəti təqdimatı Budapeştdə, Azərbaycanın Macarıstandakı Səfirliyində olub. “Şuşa



İli” çərçivəsində keçirilən tədbir səfirliyin və “Arts Council Azerbaijan” təşkilatının əməkdaşlığı ilə gerçəkləşib.

Tədbirdə çıxış edən Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə hər iki ölkə arasında mövcud strateji tərəfdaşlıq əlaqələri, o cümlədən mədəniyyət sahəsində əməkdaşlıq barədə məlumat verib.

Səfir ölkəmizin 44 günlük Vətən müharibəsi nəticəsində əldə etdiyi tarixi Zəfər və Azərbaycan mədəniyyətinin incisi sayılan Şuşa şəhərinin 30 il sonra erməni işğalından azad edilməsinin ölkəmizin tarixində dönüş nöqtələrindən sayıldığını vurğulayıb. T.Tağızadə 2023-cü ildə “Türk Dünyasının Mədəniyyət Paytaxtı” olacaq Şuşa və “Avropanın Mədəniyyət Paytaxtı” olacaq Vesprem (Macarıstan) şəhərləri arasında əlaqələrin qurulduğunu, növbəti ildə birgə tədbirlərin təşkili barədə razılığa gəlindiyini diqqətə çatdırıb.

Tədbir iştirakçıları 8-15 yaşlı azərbaycanlı uşaqların Şuşa şəhəri və Qarabağla bağlı rəsmlərinə baxıblar. Pianoçu Səidə Tağızadənin ifasında Azərbaycanın klassik musiqi nümunələri də maraqla qarşılanıb.

Tədbirdə Macarıstanda akkreditə olunmuş diplomatik korpusun və yerli ictimaiyyətin nümayəndələri, Azərbaycan diasporunun təmsilçiləri, Budapeşt şəhərində təhsil alan azərbaycanlı və əcnəbi tələbələr iştirak ediblər.

# “Çiçəklərin nəfəsi”

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda macar şairi Miklоş Radnotinin yaradıcılığına həsr olunmuş təqdimat

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda məşhur macar şairi Mikloş Radnotinin yaradıcılığına həsr olunmuş bədii-musiqili gecə, eləcə də ədibin Fond tərəfindən Azərbaycan dilində çap olunan “Çiçəklərin nəfəsi” adlı şeirlər kitabının təqdimat mərasimi keçirilib.

Sentyabrın 27-də keçirilən tədbirin rəsmi hissəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, təşkilatın müşahidəçi ölkəsi olan Macarıstanın Azərbaycandakı səfiri Tamaş Yojef Torma və Türk Dövlətləri Təşkilatının Budapeştdəki nümayəndəliyinin rəhbəri Yanoş Hovari çıxış ediblər.



Günay Əfəndiyeva qədim Hun-Türk tarixindən söz açaraq bildirib ki, Macarıstan Qərbi Hun İmperiyasının mərkəzi olub. Müasir macar xalqı isə həm də Atillanın nəsli, onun varisləridir: “Beləliklə, əsrlər boyu macar və türk xalqlarının bir-birinə bəslədiyi münasibət dostluqdan daha artıq bir səviyyədə olub. Çünki xalqlarımız arasındakı doğmalıq ortaq keçmişə, mənşəyə, dilə və mədəniyyətə söykənir”.

Fondun Türk dünyasının qədim maddi-mənəvi dəyərlərini öyrənilməsi və təbliği istiqamətində fəaliyyətindən danışan Günay Əfəndiyeva bildirib ki, müşahidəçi ölkə Macarıstanın mədəniyyəti də qurumun diqqət mərkəzindədir. Təşkilatın növbəti layihəsi macar xalqının böyük şairi Mikloş Radnotinin (1909-1944) Azərbaycan dilinə tərcümə olunan şeirlərindən ibarət kitabının nəşr edilməsidir. Kitabın macar ədəbiyyatının Azərbaycan oxucularına tanıdılmasına daha bir töhfə olacağını bildirən Günay Əfəndiyeva deyib: “Radnotinin ədəbi irsində parlaq istedadı ilə yanaşı, həm də cəsarətli xarakteri aydın nəzərə çarpır. O, əsl xalq şairi idi. Faşizmin macar xalqına qarşı törətdiyi vəhşiliklərlə bağlı vətəndaş mövqeyini bildirir və bu barışmazlığı yüksək poetik dillə qələmə alırdı...”.

Macarıstanın Azərbaycandakı səfiri Tamaş Yojef Torma şairin keşməkeşli həyatından söhbət açıb. Bildirib ki, Mikloş Radnotinin yaradıcılığı Macarıstanın ən çətin dönəminə təsadüf edib. II Dünya müharibəsi qurbanlarından olan şair həyatını macar xalqına həsr edib, şeirlərilə insanlarda vətənə sevgi aşılayıb. Səfir “Çiçəklərin nəfəsi” kitabının nəşrinə görə Günay Əfəndiyevaya təşəkkürünü bildirib.

Türk Dövlətləri Təşkilatının Budapeştdəki nümayəndəliyinin rəhbəri Yanoş Hovari də Mikloş Radnotinin II Dünya müharibəsi dövründə faciəvi hadisələrin qurbanlarından biri olduğunu qeyd edib, həmçinin 1926-cı ildə Bakı şəhərində keçirilən Birinci Türkoloji Qurultayda iştirak edən Türk dünyasının dəyərli alimlərinin, türkoloqlarının acı taleyindən də söz açıb. O, Azərbaycanın iki il öncə qazandığı Qarabağ Zəfərindən də bəhs edərək ərazi bütövlüyü uğrunda həlak olan bütün şəhidlərin ruhlarını yad edib.

Tədbirin bədii hissəsində Əməkdar artist Sahib Paşazadə tarda macar musiqiləriini ifa edib. Sonra Əməkdar artist Nicat Kazımovun quruluşunda Mikloş Radnotinin əsərlərindən ibarət müharibə qurbanlarına həsr olunmuş bədii kompozisiya təqdim olunub.

# “Auezov və dünya sivilizasiyası” – elmi-praktik konfrans

28-29 sentyabr tarixlərində Almatı şəhərində görkəmli qazax yazıçısı Muxtar Auezovun (1897-1961) anadan olmasının 125 illiyi münasibətilə “Auezov və dünya sivilizasiyası” adlı elmi-praktik konfrans keçirilib.

Beynəlxalq Türk Akademiyası, Muxtar Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutu, TÜRKSOY və Qazaxıstan Yazıçılar İttifaqının təşkilatçılığı ilə gerçəkləşən tədbirdə ölkəmiz də təmsil olunub.

Bakı Slavyan Universitetinin professoru Nizami Məmmədov konfransda çıxış edib. Konfrans çərçivəsində Beynəlxalq Türk Akademiyası tərəfindən çapdan çıxmış yazıçının “Qırğız qəhrəmanlıq dastanı “Manas” elmi əsəri, azərbaycanlı alim, filologiya üzrə fəlsəfə doktoru Turan Teymurovun “M.Auezovun “Abay” romanında sənətkarlıq məsələləri” monoqrafiyası, həmçinin “Abay” romanının Azərbaycan dilində yeni nəşrinin təqdimatı olub.

Roman ilk dəfə 1954-cü ildə Azərbaycan dilinə tərcümə edilərək kiril əlifbası ilə nəşr edilib. Bu il Beynəlxalq Türk Akademiyası ədibin 125 illik yubileyi münasibətilə “Abay” romanını latın qrafikası ilə Azərbaycan dilində nəşr etdirib. Roman böyük qazax şairi Abay Kunanbayevin həyatı fonunda qazax xalqının tarixinə işıq tutaraq bütöv bir dövrü əhatəli şəkildə əks etdirir. Əsər dünyanın 100-dən çox dilinə tərcümə olunub.

# “Türk” sözünün qədim yazılı mənbələrdə ilk qeydə alındığı daş kitabə

## Bursada “İlteriş Müqəddəs Kağan” memorial kompleksi və daş kitabəsinin təqdimatı olub

*əvvəli səh. 1-də*

Füzuli Məcidli bildirib ki, 2009-cu ildə türkdilli ölkələrin başçılarının Naxçıvan sammitində qəbul edilmiş qərara əsasən təsis olunan BTA-nın mənzil-qərargahı Qazaxıstanın Astana şəhərində yerləşir. Təşkilat 2016-cı ildən etibarən bir çox layihələr həyata keçirir. Onlardan biri də tarixi türk mirası istiqamətində aparılan arxeoloji qazıntılardır. Bu işlər bir neçə şəhərdə paralel şəkildə həyata keçirilir. Lakin qazıntılar ən geniş şəkildə Monqolustanda aparılır: “Bizim və Monqolustanın arxeoloqlarının birgə işi nəticəsində bu ilin avqust ayında çox vacib bir kəşfə imza atılıb. Tapıntı 130 ilin ən böyük kəşfi deyilə biləcək səviyyədə bir tarixi əsəri ortaya çıxartdı. Bu, “Türk” sözünün qədim türkdilli yazılı mənbələrdə ilk qeydə alındığı bir daş kitabədir. Beynəlxalq Türk Akademiyasının üzvü olan dövlətlərimizin arxeoloqları bu işi həyata keçirdilər və belə bir nailiyyətə imza atdılar. Bilgə Xaqan, Kültegin kimi kitabələrdən sonra bu, çox əhəmiyyətli bir tarixi kəşfdir. Tapıntının əhəmiyyəti ondan ibarətdir ki, bu əsər türk yazı tarixinin və “Türk” kəlməsinin yazılı mənbələrdə istifadəsini yüz il daha əvvələ, yəni təxminən yeddinci əsrə aparır. Bu da bizim ortaq türk yazı tariximizin nə qədər qədim və zəngin olduğunu sübut edir”.



BTA-nın vitse-prezidenti qeyd edib ki, bu il Bursa şəhərinin “Türk Dünyasının Mədəniyyət Paytaxtı” olmasını nəzərə alaraq kitabənin ilk təqdimatını burada keçirdik. Abidə Bursada həm fotosərgi, həm də tanıtım proqramı ilə ictimaiyyətə təqdim olundu. Qarşıdan gələn günlərdə eyni təqdimatın Bakıda, daha sonra isə bütün Türk dünyası ölkələrinin paytaxtlarında keçirilməsi nəzərdə tutulur. Son olaraq bu ilin sonunda 15 dekabr – “Beynəlxalq Türk Dili Günü” münasibətilə Parisdə, UNESCO-nun qərargahında bu tapıntının beynəlxalq səviyyədə nümayişi keçiriləcək.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 470 il əvvəl...

**2 oktyabr 1552-ci ildə** Çar İvan (IV) Qroznının qoşunları bir neçə ay mühasirədə saxladığı Kazan şəhərinə daxil olublar. Şəhərin süqutu ilə Kazan xanlığının (indiki Tatarıstan və Volqaboyu ərazilər) Rusiya dövlətinə birləşdirilməsi başa çatdı.

### 216 il əvvəl...

**3 oktyabr 1806-cı ildə** Birinci Rusiya-İran müharibəsi (1804-1813) gedişində rus qoşunları Bakını işğal ediblər. Rusiya qoşunları hələ 1806-cı ilin fevralında Bakını mühasirəyə almışdı. O zaman general Pavel Sisianov şəhərin təslim edilməsi ilə bağlı Bakı hakimi Hüseynqulu xanla danışıqlar aparan zaman öldürülmüş və bundan sonra ruslar geri dönmüşdü. Yeni hücumla Bakını ələ keçirən rus qoşunları şəhərdə böyük qırğın və talan törətmişdi. İşğaldan sonra Bakı xanlığı ləğv olundu və xanlığın ərazisində çar Rusiyası Qafqaz hakimliyinin Bakı dairəsi yaradıldı.

### 195 il əvvəl...



**1 oktyabr 1827-ci ildə** Rusiya qoşunları İranla müharibə (1826-1828) gedişində İrəvan qalasını ələ keçiriblər. General İvan Paskeviçin komandanlıq etdiyi qoşunlar bundan öncə (20 sentyabr) bölgədəki əsas strateji məntəqə olan Sərdarabad qalasını işğal edəndən İrəvanın müdafiə imkanları zəifləmişdi. İrəvanın işğal olunmasında erməni əhalisi, Eçmiədzin kilsəsi ruslara hər cür yardım göstərmişdi.

### 104 il əvvəl...

**1 oktyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının yaradılması barədə qərar qəbul edib. Prezident Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən, 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

### 95 il əvvəl...

**1 oktyabr 1927-ci ildə** SSRİ ilə İran arasında “Qarşılıqlı təminatlar və neytrallıq haqqında” saziş imzalanıb. Sazişdə iki ölkənin Xəzərdəki sərhədi də müəyyənləşmişdi, sərhəd Astara (Azərbaycan) – Həsənqulu (Türkmənistan) xətti üzrə keçirdi.

### 73 il əvvəl...

**1 oktyabr 1949-cu ildə** Çin Xalq Respublikasının yarandığı elan edilib. Çin kommunistlərinin lideri Mao Tszedun (Zedong, Tse-tung) dövlətin rəhbəri olub. 1840-cı illərdə qismən Britaniya imperiyasının təsiri altına düşən Çində 1927-ci ildə Sun Yatsenin başçılığı ilə inqilab qələbə çalmışdı. Lakin bundan sonra hakimiyyətə gələn general Çan Kayşi diktatura rejimi qurdu və ölkənin əsas hissəsini müttəfiqi olduğu Yaponiyanın təsiri altına saldı. II Dünya müharibəsindən sonra Çində xalq inqilabı başlandı və ÇXR elan edildi.

### 64 il əvvəl...

**2 oktyabr 1958-ci ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Qvineya müstəqilliyini elan edib.

### 62 il əvvəl...

**1 oktyabr 1960-cı ildə** Britaniyanın protektoratlığında olan Nigeriya müstəqilliyini elan edib. Afrikanın ən böyük ölkələrindən olan Nigeriya 1914-cü ildən Britaniyanın nəzarətinə keçmişdi.

### 32 il əvvəl...

**3 oktyabr 1990-cı ildə** Qərbi və Şərqi Almaniya (ADR və AFR) birləşərək vahid dövlət olub. II Dünya müharibəsindən sonra SSRİ, ABŞ, Britaniya, Fransa arasında sektorlara bölünən Almaniya ərazisində 1949-cu ildə Almaniya Demokratik Respublikası (sovet sektorunda, 108 min kv km) və Almaniya Federativ Respublikası (Qərb sektorunda, 255 min kv km) yaranmışdı.

### 30 il əvvəl...




**1 oktyabr 1992-ci ildə** BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Azərbaycan Respublikasının nümayəndəliyi açılıb. Bunadək Azərbaycanın BMT-dəki nümayəndəliyi Türkiyənin təşkilatdakı nümayəndəliyində yerləşirdi.

### 29 il əvvəl...

**3 oktyabr 1993-cü ildə** Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirilib. 1993-cü il iyunun 24-də Milli Məclis tərəfindən Əbülfəz Elçibəyin prezident səlahiyyətlərindən məhrum edilməsi və avqustun 29-da bununla bağlı referendum keçirilməsindən sonra növbədənkənar seçkilər elan edilmişdi. Rəsmi nəticələrə görə, seçkidə iştirak edənlərin 98,8 faizinin səsini qazanan Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

### 27 il əvvəl...

**2 oktyabr 1995-ci ildə** Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında diplomatik münasibətlər yaradılıb. 1992-1993-cü illərdə Xalq Cəbhəsi hakimiyyəti dövründə Özbəkistanla münasibətlərdə soyuqluğun yaranması iki ölkənin diplomatik əlaqələr qurmasını xeyli ləngitmişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2780
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641